RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 90 (9257) 3 MAY 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




♦ Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri

# Prezident Ağdamda tikinti-quruculuq işlərinin miqyasını genişləndirir




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin, Ağdam Muğam Mərkəzinin, Ağdam şəhərində salınacaq 2-ci və 3-cü yaşayış məhəllələrinin, Ağdam şəhərində inzibati binanın təməllərini qoyublar.

Sonra dövlət başçısı Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olub.

→ 2-3

## Heydər Əliyev İli



## Müstəqil xarici siyasət quruculuğunda Heydər Əliyev strategiyası

Ulu Öndər Heydər Əliyev 1993-cü ilin 15 iyun tarixində Milli Məclisin Sədri seçilərkən, yəni Qurtuluş Missiyasının başlandığı gün parlamentin tarixi iclasında çıxışında xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini, region və dünya dövlətləri ilə əlaqələrin əsas istiqamətlərini müəyyənləşdirdi. Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasət olduğunu nəzərə alaraq, o, daim qeyd edib ki, dövlətimizin sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır. Bildirdi ki, bu, elə bir xarici siyasət olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin.

→ 6

## Hüquqi qanunvericilik bazası təkmilləşdirilir

Mayın 2-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova onun rəhbərliyi ilə nümayəndə heyətinin Türk Dövlətləri Parlament Assambleyasının on ikinci plenar iclasında iştirak etmək üçün aprelin 27-28-də Türkiyəyə işgüzar səfərdə olması barədə məlumat verib. Millət vəkilləri çıxışlarında Laçın-Xankəndi yolunda sərhəd-buraxılış məntəqəsinin qurulmasının milli və regional təhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb etdiyini söyləyiblər.

→ 5

## "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" 2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2023-cü il*

## "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" 2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2023-cü il*

## Türkiyədə Azərbaycan şəhəri

### İlham Əliyev Azərbaycanın daim Türkiyənin yanında olduğunu əməli işlərlə sübut edir

**Dövlət başçısı İlham Əliyevin ifadə etdiyi kimi, "Bir millət, iki dövlət, bir yumruq" olan Azərbaycan-Türkiyə qardaşlığı, həmrəyliyi tarixində ən yüksək zirvəyə ucalıb. Təkcə bu günümüzə deyil, uzaq keçmişimizə dayanan bu birgəliyimiz sayəsində ölkələrimiz gücünə güc qatıb, daha da qüdrətlənib. Tarixin vərəqlərini çevirdikcə, Azərbaycan Türkiyə birgəliyinə, xalqlarımızın çətin anlarda bir-birinə dayaq, dəstək olmalarına nümunə olan çox qürurverici və fəxarətli nümunələrlə rastlaşırıq.**

### Qardaşın qardaşa borcu olmaz

XX əsrin əvvəlləri, türk düşmənlərinin birləşərək Osmanlı dövlətinin üzərinə hücuma keçdiyi qanqadalı Çanaqqala savaşında Azərbaycan xalqının maddi və hərbi dəstəyi ilə son ana qədər türk qardaşlarının yanında olması tariximizə qızıl hərflərlə həkk olunub. O zaman hələ özü çarizmin istibdadı altında olan xalqımızın üzvləri qorxu bilmədən türk bacı-qardaşlarına yardıma tələsmiş, ər oğullarımız döyüş meydanında düşmənə qarşı savaşmış, qəhrəmanlıqlar göstərərək şəhid olmuşdu. Xeyriyyəçi-mesenatlar Osmanlıya xeyli maddi yardım göstərmiş, xalqımızın sadə üzvləri də öz paylarını əsirgəməmiş, ana-bacılarımız boyun-boğazlarındakı zinət, evlərindəki qızıl, gümüş əşyalarını türk bacı-qardaşlarının düşmənə qarşı ayaqda durması, direniş göstərməsi üçün yollamışdılar...



→ 10

## Nəzarət-keçid məntəqəsində hərəkətin təhlükəsizliyi təmin olunub



→ 11

## Torpağa ölüm "səpənlər"

Erməni nasistləri misli görünməyən vəhşiliklərin və insan ağlının dərk etməsi mümkün olmayan qansız cinayətlərin və vəhşiliklərin müəllifləridir. Onların belə əməllərindən biri də dinc sakinləri, qadınları və uşaqları qətlə yetirən, ölümünə bais olan basdırdıqları minalardır.

44 günlük Vətən müharibəsindən keçən müddət ərzində ümumilikdə 298 nəfər Azərbaycan vətəndaşı erməni faşistlərinin basdırdıqları minalara tuş gəlmiş, onlardan 54 nəferi həlak olmuşdur. Bu statistik rəqəmlərin arxasında isə qırılan insan taleləri, dinc əhalinin səksəkədə yaşanılan ağır günləri dayanır.




→ 11

## Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri

# Prezident Ağdamda tikinti-quruculuq işlərinin miqyasını genişləndirir

## Ağdam Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməli qoyulub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoyub.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlət başçısına mərkəz və kompleks barədə ətraflı məlumat verdi.

Bildirildi ki, Rəqəmsal İdarəetmə Mərkəzi şəhərin müxtəlif təyinatlı infrastrukturunun elektrik enerjisinə tələbatını ödəməklə yanaşı, təchizat sxeminə daxil olan şəbəkələrin real vaxt rejimində və rəqəmsal formatda idarə olunmasını təmin edəcək. Müasir tipli mərkəz vasitəsilə ətraf ərazilərin də elektrik enerjisi ilə təchizatının etibarlılığına və dayanıqlılığına nəzarət təmin olunacaq. Elektrik şəbəkələrinin Rəqəmsal İdarəetmə Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin yüksəldilməsinə zəmin yaradacaq. Burada mühəndis-texniki heyətin səmərəli fəaliyyətini təmin edən müasir avadanlıqla təchiz olunmuş iş otaqlarının, vətəndaş qəbulu üçün şəraitin yaradılması nəzərdə tutulub.

Qeyd olundu ki, Təlim-Tədris Kompleksində beynəlxalq tədbirlərin keçirilməsi üçün lazımi şərait yaradılacaq.

Kompleksin Regional Tədris Mərkəzində yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiqi və istismarı qaydaları, peşə vərdişlərinin formalaşdırılması, real iş şəraitində təlim və ustalıq yarışlarının təşkili nəzərdə tutulur. Mərkəz təlim-tədris zalından və təlim poliqonundan ibarətdir. Tədris zalı 35/0,4 kV-luq müasir şəbəkə modelinin, 35 və 0,4 kV-luq fiberoptik kabellərin, kompozit şüşə-lifli dayaqların tətbiq sahələri, perspektiv inkişafı və üstünlüklərinin əyani şəkildə təqdim edilməsi üçün nəzərdə tutulub. Burada həmçinin xüsusi dayaqlarda şəbəkədə istifadə edilən element və ləvazimatlar qurulacaq.

İşğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" mənbələrinin (günəş və külək enerji qurğuları) tətbiqinə dair real işlək model də tərtib olunub, həm personalın, həm də gələcəkdə aktiv istehlakçıların maarifləndirilməsi təlimlərində istifadəsi nəzərdə tutulub. Burada elektroenergetika sahəsində əldə olunmuş tarixi nailiyyətləri əks etdirən elektron guşə və əyani vəsait stendləri, müasir uçot cihazları (SMS, Smart, NFC-sayğacları) və təhlükəsizlik texnikası, idarəetmə plakatları təqdim ediləcək.

Məlumat verildi ki, beynəlxalq tədbirlər poliqonu isə peşə ustalığı yarışları və müasir texnologiyaların əyani nümayişi üçün nəzərdə tutulmuş texnoloji ərazidir. Poliqonda günəş və külək enerji mənbələrinin qurulması, istismarı və müasir idarəetmə sistemləri üçün BOEM-təlim sahəsi planlaşdırılıb. Təlim poliqonunda real iş şəraitində istifadə edilən müasir şəbəkə modeli, "yaşıl enerji" elementləri (günəş və külək enerji mənbələri) və innovativ layihə maketlərinin yerləşdirilməsi nəzərdə tutulub. Poliqon beynəlxalq peşə ustalığı yarışlarının, elektrotexniki təlim tədbirlərinin keçirilməsi və müxtəlif istiqamətlər üzrə təcrübə mübadiləsinin əyani nümayiş etdirilməsi üçün də geniş imkanlar yaradacaq.

Burada yaradılacaq Regional Logistika Mərkəzi isə region üzrə tələb olunan nəqliyyat, xüsusi texnika və mal-materialın daşınması, təmiri və saxlanması üçün nəzərdə tutulub. Məqsəd tələb olunan texniki vasitələrin vaxt itkisi olmadan əraziyə çatdırılması və saz vəziyyətdə saxlanmasından ibarətdir.

Transformator xidmət sahəsində müasir paylayıcı şəbəkələrdə tətbiq edilən güc transformatorlarının təmiri, sazlanması və müasir cihazlarla təchiz edilməsi həyata keçiriləcək.

Mərkəzi Laboratoriya smart-sayğaclar, kabel, izolyator, qurğu və avadanlıqların test-sınaq-diaqnostika tədbirlərinin həyata keçirilməsi üçün nəzərdə tutulub.

Dövlətimizin başçısına işğaldan azad olunmuş ərazilərdə "Azərişıq" ASC tərəfindən paylayıcı elektrik şəbəkəsinin qurulması istiqamətində görülmüş işlər barədə də məlumat verildi. Qeyd edildi ki, Ağdam rayonu ərazisində yerləşən infrastruktur və strateji obyektlərin ilkin mərhələdə elektrik təchizatı üçün 28 kilometr məsafədə 10 kV-luq hava elektrik verilişi xətləri çəkilib, 7 ədəd müxtəlif gücdə komplekt transformator məntəqəsi quraşdırılıb. Hazırda isə 35 kV-luq "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının tikintisi və bu yarımstansiyaların qidalandırılması üçün 35 kV-luq kabel xətlərinin çəkilməsi işləri görülür. Kəlbəcər rayonu üzrə dayanıqlı elektrik təchizatı üçün 31 kilometr uzunluğunda 110 kV-luq hava xətti çəkilib, 110/35/6 kV-luq "Daşkəsən yarımstansiyası yenidən qurularaq, 33,7 kilometr uzunluğunda 110 kV-luq hava xətləri bərpa edilib. Hazırda 35/0,4 kV-luq "Kəlbəcər" yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq "Çaykənd-Zod" kabel xəttinin çəkilməsi işləri aparılır. Laçın rayonunda da bir çox işlər görülüb, o cümlədən Azərbaycan-Ermənistan şərti dövlət sərhədi istiqamətində qurulan sərhəd-keçid məntəqəsini elektrik enerjisi ilə təmin etmək üçün 1,8 kilometr uzunluğunda 0,4 kV-luq kabel xətləri çəkilib və 160 kVA gücündə 2 transformator quraşdırılıb. Hazırda Kilsəlidağ, 6-cı rayon və Şəlvə əraziləri istiqamətində 66 kilometr uzunluğunda 35 kV-luq elektrik verilişi xətlərinin çəkilməsi və müxtəlif gücdə komplekt transformator məntəqələrinin quraşdırılması işləri aparılır.

Prezident İlham Əliyev Ağdam Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoydu.

## Ağdam Muğam Mərkəzinin təməlqoyulma mərasimi







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam Muğam Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına və birinci xanıma layihə barədə məlumat verdi.

Mərkəzin binasının birinci mərtəbəsində kafe, kinozal, kitabxana, 637 yerlik konsert və iki rəqs zalının yaradılması nəzərdə tutulur. İkinci mərtəbədə isə inzibati otaqlar olacaq. Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı, müəllimlər və müdir otaqları yaradılacaq, ərazisində isə min kvadratmetrlik açıq amfiteatr inşa ediləcək.

Qeyd edək ki, qədim və zəngin mədəniyyətimizin vizit kartı muğam, eyni zamanda xalqımızın malik olduğu milli mədəniyyətin koloriti, hər birimizin mənəvi və ruhi qidasıdır. Bütün azərbaycanlıların həyat hekayətinə çevrilən muğamın təbliğinə son illərdə istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda dövlət səviyyəsində yüksək diqqət və qayğı göstərilir. Muğamın yaşaması, dünyada layiqincə təbliği və gələcək nəsillərə ötürülməsi baxımından son dövrlərdə yaradılan muğam mərkəzlərinin müstəsna əhəmiyyəti var.

Bəşəriyyətin şifahi və mənəvi irsinin incilərindən olan muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən son illərdə görülən sanballı işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da layiqli töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə UNESCO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf etdi. Muğam UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına salınıb. Son illərdə muğam müsabiqələrinin keçirilməsi bu əvəzsiz sənət incisinin yaşadılması istiqamətində mühüm hadisə kimi tarixə düşüb. Azərbaycan milli musiqi mədəniyyətinə görkəmli muğam ifaçıları bəxş etmiş Ağdam rayonunda Muğam Mərkəzinin inşası işğaldan azad olunmuş ərazilərimizdə digər sahələr kimi, mədəniyyətin də sürətlə dirçəldilməsi istiqamətində ardıcıl işlərin görüldüyünü göstərir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin təməlini qoydular.

## Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna səfəri

# Prezident Ağdamda tikinti-quruculuq işlərinin miqyasını genişləndirir

## Ağdam şəhərində salınacaq 2-ci yaşayış məhəlləsinin özülü qoyulub



Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq 2-ci yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma yaşayış məhəlləsi barədə məlumat verildi.

Bildirildi ki, ümumi sahəsi 14 hektara yaxın olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Mənzillərdən 114-nün birotaqlı, 464-nün ikiotaqlı, 536-nın üçotaqlı, 154-nün isə dördotaqlı olması planlaşdırılır.

Məhəllədəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur.

Bütün binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istiliktutumlu təbii inşaat materiallarından istifadə olunacaq.

Dövlətimizin başçısı Ağdam şəhərində 2-ci yaşayış məhəlləsinin təməlini qoydu.

## Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanışlıq

Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olub.





AZƏRTAC xəbər verir ki, dövlət başçısına görülən işlər barədə məlumat verildi.

Qeyd edək ki, Azərbaycan Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamına əsasən inşa olunan bu dəmir yolu xəttinin tikintisinin 2023-cü ildə başa çatdırılması nəzərdə tutulur. Uzunluğu 47,1 kilometr (yan yolları ilə birlikdə 57 kilometr) olan bu dəmir yolu təkxətlidir və elektrikləşdirilməyib. Yol boyunca Bərdə, Köçərli, Təzəkənd və Ağdam stansiyaları fəaliyyət göstərəcək. Dəmir yolunun üzərində 3 körpü inşa olunacaq. Yolun keçdiyi ərazi minalardan təmizlənib.

Bildirildi ki, dəmir yolu xəttinin layihələndirilməsi işləri 90 faiz yerinə yetirilib, Ağdam vağzalının təməli qoyulub. Həmçinin Bərdə və Ağdam mənzillərində 3 platforma, həmin platformalar üçün əlavə yolun və iki yoldəyişənin layihələndirilməsi nəzərdə tutulur. Dəmir yolu xəttinin 32,8 kilometrlik hissəsində relslər quraşdırılıb. Həmçinin torpaq işləri, mühəndis qurğularının tikintisi, yolun üst quruluş elementlərinin və yoldəyişənlərin quraşdırılması birinci mərhələ üzrə tam başa çatdırılıb. Hazırda 45-ci və 47-ci kilometrlərarası ərazidə üst quruluş elementlərinin quraşdırılması və Ağdam stansiyasının 6-cı yolunun torpaq işləri davam etdirilir.

Diqqətə çatdırıldı ki, tikinti-quraşdırma işləri iki mərhələdə həyata keçirilir. Yolun Bərdə-Təzəkənd hissəsində işlərin 80 faizi icra edilib. Təzəkənd-Ağdam istiqamətini əhatə edən ikinci mərhələdə isə icra vəziyyəti 71 faizdir.

Dövlət başçısına Ağdam şəhər dəmir yolu və avtovağzal kompleksi barədə də məlumat verildi.

Bildirildi ki, kompleks vahid nəqliyyat qovşağı kimi dizayn olunub. Bu da sərnişinlərin rahat hərəkətinə imkan yaradacaq. Milli memarlıq üslubunda inşa olunacaq kompleksin binasında şüşə elementlər üstünlük təşkil edəcək.

Avtovağzalda ilkin mərhələdə şəhərlərarası (rayonlararası) müntəzəm avtobus marşrutlarının sayının 10 olması planlaşdırılır. Dəmir yolu vağzalında gündəlik 1000, avtovağzalda isə 1500 nəfərədək sərnişinin qəbul edilməsi nəzərdə tutulur.

## Ağdam şəhərində 3-cü yaşayış məhəlləsinin təməlqoyma mərasimi

Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində salınacaq 3-cü yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.




AZƏRTAC xəbər verir ki, dövlət başçısına və xanımına əvvəlcə Ağdam şəhər 1 saylı məktəbin yeni binasında tikinti işlərinin gedişi barədə məlumat verildi. Bildirildi ki, 960 şagird yerlik bu məktəbdə təhsil üçün hər cür şərait yaradılacaq.

Qeyd edək ki, bu məktəbin binasının təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Fəaliyyətə 1883-cü ildə başlayan bu təhsil ocağı Qarabağ bölgəsinin ən qədim məktəbidir.



Məlumat verildi ki, ümumi sahəsi 17 hektara yaxın olan yaşayış məhəlləsinin salınacağı ərazinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir və bu hissələrdə əhalinin sıxlığı azdır. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumi sahəsi 120 min kvadratmetr təşkil edən 1239, o cümlədən 25 birotaqlı, 396 ikiotaqlı, 533 üçotaqlı, 285 dördotaqlı mənzil olacaq.

Yaşayış məhəlləsindəki binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq. Binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək.

Məhəllədə həmçinin idman meydançaları, velosiped və avtomobil dayanacaqları yaradılacaq.

Dövlət başçısı Ağdam şəhərində 3-cü yaşayış məhəlləsinin təməlini qoydu.

## Ağdam şəhərində inzibati binanın təməli qoyulub

Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində tikiləcək inzibati binanın təməlinin qoyulması mərasimində iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma layihə barədə məlumat verildi.

Bildirildi ki, zirzəmi və beş mərtəbədən ibarət olacaq binanın tikinti sahəsi ümumilikdə 24,5 min kvadratmetr təşkil edəcək. Zirzəmi qatında avtomobil dayanacağı, mülki müdafiə sığınacağı, texniki otaqlar, anbar, mətbəx, auditoriya yaradılacaq. Binanın birinci mərtəbəsində rayon statistika idarəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rayon şöbəsi, Qida Təhlükəsizliyi Agentliyinin, Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin regional bölmələri, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yerli bölməsi, rayon mədəniyyət şöbəsi, Məşğulluq Mərkəzi (DOST mərkəzi), Dövlət Aqrar İnkişaf Mərkəzi, Dövlət Vergi Xidmətinin Ərazi Vergilər İdarəsi, iclas otağı və arxiv olacaq.

İkinci mərtəbədə 7 iclas otağı, 8 açıq ofis, zal, katiblik fəaliyyət göstərəcək. Üçüncü mərtəbədə Azərbaycan Respublikasının Prezidentinin xüsusi nümayəndəliyinin qərargahı, iki hissəyə bölünə bilən ziyafət zalı yaradılacaq. Dördüncü və beşinci mərtəbələrdə də ofislər, görüş, iclas və digər otaqlar olacaq. İnzibati binanın qarşısında tədbirlərin keçirilməsi üçün parad meydanının, sahəsi 17,5 min kvadratmetr olan park və şəhər meydanının da tikintisi nəzərdə tutulub.

Prezident İlham Əliyev inzibati binanın təməlini qoydu.



# Heydər Əliyev İli 2023

# Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir

## Bakıda Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin toplantısı keçirilib






Mayın 2-də Bakıda, Heydər Əliyev Sarayında Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin toplantısı keçirilib. Toplantı Ümummilli Liderin anadan olmasının 100 illiyinə həsr edilib.



AZƏRTAC xəbər verir ki, Ulu Öndərin hakimiyyət illərində xaricdə təhsil almış həmvətənlərimizin qatıldığı toplantıda dövlət və hökumət nümayəndələri də iştirak ediblər.

Əvvəlcə sarayın foyesində Ulu Öndərin hakimiyyətinin hər iki dövründə Azərbaycan təhsilinə qayğısından bəhs edən fotosərgi ilə tanışlıq olub.

Toplantı açıq elan edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov çıxış edib.

Bu günlərdə xalqımızın böyük tarixi şəxsiyyət, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin böyük təntənə ilə qeyd edildiyini bildirən Baş nazir deyib ki, Ulu Öndərin 100-cü ildönümü onun ideya və arzularının gerçəkləşdiyi, tövsiyə və vəsiyyətlərinin yerinə yetirildiyi tarixi şəraitdə keçirilir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamında qeyd edildiyi kimi, davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

1974-cü ildə Moskva şəhərində Plexanov adına Xalq Təsərrüfatı İnstitutuna daxil olduğunu, 1978-ci ildə həmin institutu bitirdiyini xatırladan Ə.Əsədov deyib: "O illərdə belə nüfuzlu ali məktəblərə qəbul olmaq biz gənclər üçün böyük şərəf idi. Bu istiqamətdə atılan addımların hansı qlobal məqsədə xidmət etdiyi barədə təsəvvürümüz olmasa da, üzərimizə düşən məsuliyyəti - Azərbaycan üçün gərəkli mütəxəssis kimi yetişməyin əhəmiyyətini dərk edir, respublika rəhbərinin xeyir-duasından daha da ruhlanırdıq. İllər sonra Ulu Öndər özü etiraf edirdi ki, bu uzaqgörən strategiyanın məqsədi bir çox ixtisaslar üzrə milli kadrların hazırlanması ilə yanaşı, həm də Azərbaycan gənclərinin dünya görüşlərinin genişləndirilməsi idi. Bugünkü toplantının iştirakçıları Azərbaycanın ictimai-siyasi həyatının müxtəlif sahələrində fəaliyyət göstərən, Vətənimizin hərtərəfli inkişafına töhfələr verən insanlardır. Hər birimiz böyük həyat yolu keçərək şəxsiyyət kimi formalaşmışıq, müxtəlif peşələrə yiyələnmişik, müxtəlif vəzifələr tutmuşuq. Lakin bizi birləşdirən mühüm bir faktor var - əksəriyyətimiz Ulu Öndərin böyük diqqət və qayğısı nəticəsində Azərbaycandan kənarda ali təhsil almaq şərəfinə nail olmuşuq. Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, Heydər Əliyev məktəbinin məzunları, Heydər Əliyevin kadrlarıyıq".

Əli Əsədov bildirib ki, Azərbaycanın qədim tarixi və zəngin dövlətçilik ənənələri, bu ənənələri yaradan və yaşadan böyük xalqı, doğma Vətənin tarixinə öz adını əbədi yazdıran qəhrəman övladları, dahi şəxsiyyətləri var. Ancaq Ulu Öndər Heydər Əliyev onların arasında xüsusilə seçilir. Yüz il əvvəl qədim Naxçıvanda sadə, zəhmətkeş ailədə dünyaya göz açan, uşaqlığı əyalət şəhərində keçən Heydər Əliyev iş fəaliyyətinə hələ gənc yaşlarında dövlət qulluğunda başlamışdı. Sonralar onun nəhəng bir ölkənin rəhbərlərindən olması, dünya miqyasında şöhrət qazanaraq öz xalqını şərəfləndirməsi, onun əsl lider kimi çox mürəkkəb və məsuliyyətli missiyanı şərəflə yerinə yetirməsi Ulu Öndərə qismət olan bənzərsiz bir taledir. "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam", - Ulu Öndər həyat amalını belə ifadə etmiş və bu amala daim sadiq olmuşdur.

Ulu Öndərin 1972-ci ildən etibarən hər il yüzlərlə azərbaycanlı gənci SSRİ-nin böyük təcrübəyə malik ali hərbi təhsil məktəblərinə oxumağa göndərdiyini xatırladan Əli Əsədov diqqətə çatdırıb ki, o illərdə məhz Ulu Öndərin şəxsi təşəbbüsü ilə böyük çətinliklərlə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. "Belə təşəbbüslər irəli sürüləndə, milli hərbi kadrların hazırlanmasına xüsusi diqqət yetiriləndə heç kim təsəvvür edə bilməzdi ki, 2020-ci ilin bir payız günündə yüngül silahlarla Şuşanın sıldırım qayalarını aşan Azərbaycan Ordusuna məhz Heydər Əliyevin xeyir-duası ilə hərbi təhsil almış milli kadrlar rəhbərlik edəcək və bu kadrlar onun layiqli varisi, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə xalqımızın Qarabağ və Şuşa həsrətinə son qoyacaq. Ümummilli Liderimizin təməlini qoyduğu, möhkəmləndirdiyi təhsil siyasəti bu gün etibarlı zəmin üzərində inkişaf etdirilir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin böyük səyləri sayəsində elm və təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının mühüm istiqamətlərindən birinə çevrilib", - deyə Baş nazir vurğulayıb.

Ə.Əsədov qeyd edib ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 32 ölkənin 350-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaları məqsədilə ümumilikdə 3500-dən artıq gənc xaricə göndərilmiş və onlara təqaüd verilib, bu məqsədlər üçün 200 milyon manat vəsait xərclənib. Prezident İlham Əliyev 2022-ci il 28 fevral tarixli Sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Dövlət proqramının icrası müddətində hər il 400 nəfər olmaqla, ümumilikdə 2000 nəfərədək vətəndaşın xaricdə nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin ediləcək.

"Bu gün öz Vətənini, xalqını, dövlətini sevən hər bir Azərbaycan vətəndaşının qəlbində Heydər Əliyev abidəsi ucaldılıb. Nə qədər Azərbaycan xalqı, Azərbaycan dövləti var, Heydər Əliyev də yaşayacaq. Bu gün Azərbaycan Prezidentinin ətrafında sıx birləşmiş xalqımız əmindir ki, əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun otuz ilə yaxın Ermənistanın işğalı altında olan torpaqları azad etməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması müstəqil dövlətçilik tariximizin ən şərəfli səhifəsidir", - deyə Baş nazir vurğulayıb.

Sonra Ulu Öndərin Azərbaycan təhsilinə diqqət və qayğısından bəhs edən "Təhsil millətin gələcəyidir" filmi nümayiş olunub.

Toplantı digər çıxışlarla davam edib.

Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər İctimai Birliyinin sədri Natiq Əhmədov, ABŞ-nin Kolumbiya Universitetinin 2012-ci il məzunu, elm və təhsil naziri Emin Əmrullayev, Moskva Dövlət Universitetinin 1975-ci il məzunu, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Moskva Dövlət Universitetinin 1980-ci il məzunu, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Moskva Dövlət Universitetinin 1973-cü il məzunu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi Asəf Hacıyev, Leninqrad Dövlət Universitetinin 1986-cı il məzunu, Milli Məclisin komitə sədri Səməd Seyidov, Moskva Dövlət Universitetinin 1975-ci il məzunu, Almaniyanın Münhen şəhərində "Holmholtz" Elmi-Tədqiqat Mərkəzində "Dinamik sistemlər" şöbəsinin müdiri, Əməkdar elm xadimi Məsud Əfəndiyev bildiriblər ki, Heydər Əliyev iki ictimai-siyasi quruluşda Azərbaycana uğurla rəhbərlik edib. Hər iki sistemdə Azərbaycanın iqtisadiyyatını möhkəmləndirib, onun şöhrətini, nüfuzunu yüksəklərə qaldırıb, milli mənafeyini, milli mentalitetini, mədəni və mənəvi dəyərlərini qoruyub.

Qeyd olunub ki, hələ sovet hakimiyyəti illərində Ulu Öndərin təşəbbüsü ilə sosial-iqtisadi və mədəni sahələrdə həyata keçirilən tədbirlər, qazanılan nailiyyətlər ölkəmizin dövlət müstəqilliyi dövrü üçün mühüm sosial-iqtisadi və mədəni baza, təməl rolunu oynayıb. Həmin illərdə Ümummilli Liderimizin xalq qarşısında ən böyük xidmətlərindən biri də təhsilin və elmin inkişafı, milli kadr potensialının, həmçinin Azərbaycanın müxtəlif sahələrdə ehtiyac duyduğu nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Ulu Öndər həm Sovet İttifaqı dövründə, həm də müstəqillik illərində bu sahələrə xüsusi diqqət yetirərək onları dövlət səviyyəsində əsas prioritetlər kimi müəyyən etmişdi. Ulu Öndərin yorulmaz səyləri nəticəsində 1970-1980-ci illərdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəblərində 80-dən artıq sahəni əhatə edən 250-dən çox ixtisas üzrə 15 minədək azərbaycanlı gəncin ali təhsil almasına, yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmasına şərait yarandı.

Bildirilib ki, əgər 1969-cu ildə SSRİ-nin tanınmış ali məktəblərinə 50-dən az adam göndərilirdisə, 1973-cü ildə onların sayı 140-dan artıq, 1974-cü ildə 357, 1975-ci ildə 700-ə yaxın və 1976-cı ildən başlayaraq 800-900 nəfərə çatdırıldı. 1980-ci illərin əvvəllərindən isə 1000-dək Azərbaycan gənci respublikadan kənarda SSRİ-nin məşhur ali təhsil müəssisələrinə təhsil almağa göndərilmişdi. Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların xüsusi çəkisi 1970-ci ilədək cəmi 40 faiz təşkil edirdisə, 1976-cı ildə bu rəqəm 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərin əvvəllərində isə 98 faizə yüksəldi. Əvvəlki illərlə müqayisədə həm tələbələrin, həm ali məktəblərin və həm də ixtisasların sayı sürətlə artdı.

Daha sonra Yaroslavl Ali Hərbi Maliyyə Məktəbinin 1988-ci il məzunu, Dövlət Sərhəd Xidmətinin rəisinin müavini, general-leytenant Cavid Abdullayev, Moskva Dövlət Universitetinin 1982-ci il məzunu, Azərbaycan Tibb Universiteti, Bioloji kimya kafedrasının müdiri, biologiya elmləri doktoru, professor Gülnarə Əzizova, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun 1982-ci il məzunu, Əməkdar incəsənət xadimi Ayaz Salayev, Moskva Dövlət Universitetinin 1983-cü il məzunu, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü Gülşən Paşayeva, Kolumbiya Universitetinin 2008-ci il məzunu, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf, Nyu York Universitetinin 1999-cu il məzunu, İ.M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru Əziz Əliyevin çıxışları dinlənilib.

Bildirilib ki, Ulu Öndər Azərbaycandan kənarda təhsil alan gəncləri hər zaman diqqət mərkəzində saxlayır, onların inkişafına hər cür qayğı göstərirdi. Hər il avqust ayının axırlarında Vətəndən kənarda təhsil alacaq tələbə gənclərlə görüşür, öz dəyərli tövsiyələrini verirdi. 1969-cu ildən 1982-ci ilin avqust ayına qədər bir il də olmayıb ki, Ümummilli Liderimiz tələbələrlə görüş keçirməsin. Azərbaycandan kənarda təhsil almağa göndərdiyi gəncləri öz doğma övladları adlandıran Ulu Öndər deyirdi: "Vaxt gələcək ki, bu kadrlar Azərbaycana lazım olacaqlar. Vaxt gələcək ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər".

Qeyd olunub ki, Ümummilli Liderin müəllifi olduğu davamlı inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində dinamik sosial-iqtisadi tərəqqisini təmin edən Azərbaycan regionun lider dövlətinə çevrilib. Ulu Öndərin müəllifi olduğu strateji inkişaf konsepsiyasının əsas istiqamətlərindən biri də insan kapitalının gücləndirilməsi və yüksəkixtisaslı kadr potensialının formalaşdırılması olduğunu xatırladan natiqlər bildiriblər ki, Ulu Öndər Azərbaycandan kənarda təhsil alan gənclərin fəaliyyətini daim diqqət mərkəzində saxlayır, onların inkişafına yüksək qayğı göstərir, onları "Azərbaycanın milli sərvəti" adlandırırdı.

Toplantıda Azərbaycanın Xalq artisti Samir Cəfərov fortepianoda Roza Səlimovanın müşayiəti ilə "Sən elə bir zirvəsən", Əməkdar artist İlham Nəzərov fortepianoda Roza Səlimovanın müşayiəti ilə "Sənsiz" romansını ifa ediblər, Ulu Öndərin "Alagöz" və "Küçələrə su səpmişəm" mahnılarını səsləndirdiyi görüntülər təqdim olunub. Sonra ekranda Ulu Öndərin Səməd Vurğunun "Azərbaycan" şeirini səsləndirməsi nümayiş etdirilib. Toplantı Əməkdar artist Xəyyam Mustafazadənin ifasında "Azərbaycan" mahnısı ilə yekunlaşıb.

Milli Məclisin iclasında

# Hüquqi qanunvericilik bazası təkmilləşdirilir

**Mayın 2-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova onun rəhbərliyi ilə nümayəndə heyətinin Türk Dövlətləri Parlament Assambleyasının on ikinci plenar iclasında iştirak etmək üçün aprelin 27-28-də Türkiyəyə işgüzar səfərdə olması barədə məlumat verib.**

Sahibə Qafarova qeyd edib ki, iclasda "Daha ədalətli dünya üçün parlament diplomatiyası: enerji, miqrasiya, ərzaq" mövzusu ətrafında müzakirələr aparılıb. Milli Məclisin Sədri bildirib ki, çıxışında TÜRKPA-nın fəaliyyətinin ölkələrimiz arasında birlik və həmrəyliyin güclənməsinə parlament dəstəyini təmin etdiyini, eyni zamanda türk dünyasının vahid mövqeyinin beynəlxalq parlament platformalarında eşidilməsinə imkan yaratdığını qeyd edib, regionumuzda və daha geniş məkanda təhlükəsizlik, sabitlik və rifahın təmin edilməsində, miqrasiya proseslərinin mənfi nəticələrinin idarə olunmasında, zəngin neft-qaz ehtiyatlarımızın beynəlxalq bazarlara nəql edilməsində dövlətlərimizin əməkdaşlığının, məsuliyyətli davranışlarının, irəli sürdüyü təşəbbüslərin əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Spiker səfər çərçivəsində etdiyi çıxışında Azərbaycan torpaqları Ermənistanın işğalından azad edildikdən sonra həyata keçirilən genişmiqyaslı quruculuq işləri barədə də məlumat verib. O, Cənubi Qafqaz bölgəsində uzunmüddətli sülh və sabitliyin təmin edilməsi üçün Azərbaycanın göstərdiyi səylərə mane olan amilləri, o cümlədən Ermənistanın mina terrorunun davam etdiyini, onun yalan iddialar ilə beynəlxalq ictimaiyyəti aldatdığını, revanşist qüvvələrə meydan verdiyini, etnik zəmində nifrəti və irqi ədavəti təşviq etdiyini, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hərbi təxribatlar törətdiyini tədbir iştirakçılarının nəzərinə çatdırdığını deyib.

Milli Məclisin Sədri bu təxribatların qarşısının alınması məqsədilə Azərbaycanın suveren hüququndan istifadə edərək beynəlxalq hüquq prinsipləri və normaları əsasında Laçın-Xankəndi yolunun başlanğıcında Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi qurduğunu da bildirib.

Sahibə Qafarova qeyd edib ki, iclasda bir sıra mühüm qərarlar qəbul edilib. Xüsusən, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində TÜRKPA-nın müşahidəçi statusu alması ilə bağlı müraciət edilməsi məsələsi nəzərdən keçirilib və dəstəklənib. Bununla yanaşı, Türk Dövlətlərinin Parlament Assambleyasında Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin müşahidəçi statusu əldə etməsi ilə bağlı müraciətinə baxılıb və Parlament Şəbəkəsinə Assambleyada müşahidəçi statusu verilib. Eləcə də TÜRKPA-nın növbəti on üçüncü plenar iclasının gələn ilin may-iyun aylarında Azərbaycanda keçirilməsi qərara alınıb. Parlament Assambleyasının plenar iclası Ankara Bəyannaməsinin qəbul olunması ilə başa çatıb.

Milli Məclisin Sədri bildirib ki, Ankaraya işgüzar səfər çərçivəsində Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopla görüşüb. Görüşdə qardaş dövlətlərimiz arasında münasibətlərin dərinləşməsində parlamentlərarası əməkdaşlığın rolu ilə bağlı müxtəlif məsələlər nəzərdən keçirilib.

Görüşün sonunda Azərbaycan Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi arasında Əməkdaşlıq haqqında Saziş imzalanıb. Bu günə qədər belə saziş yox idi. Ona görə də bu saziş imzalandı.

Spiker nümayəndə heyətinin Ankaraya işgüzar səfərinin uğurlu keçdiyini deyib və bununla əlaqədar nümayəndə heyətinin hər bir üzvünə minnətdarlığını bildirib.

İclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Komitə sədri Zahid Oruc, deputatlar Kamal Cəfərov, Mahir Abbaszadə, Elşad Mirbəşiroğlu, Aqil Məmmədov, Rüfət Quliyev, Elman Nəsirov, Ceyhun Məmmədov, Azay Quliyev, Əli Məsimli, Sabir Rüstəmxanlı çıxış ediblər. Çıxış edənlər Prezident İlham Əliyevin bu günlərdə Türkiyəyə işgüzar səfərini, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında iştirakını yüksək qiymətləndiriblər. Deputatlar Azərbaycan-Türkiyə əlaqələrinin daha da möhkəmləndiyini, ölkələrimizin etibarlı tərəfdaş olduğunu vurğulayıblar.

Millət vəkilləri çıxışlarında Laçın-Xankəndi yolunda sərhəd-buraxılış məntəqəsinin qurulmasının milli və regional təhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb etdiyini söyləyiblər. Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi mina terroru, onun xüsusilə dinc əhali arasında qurbanlarının sayının artması ilə bağlı fikirlərini səsləndiriblər, bu haqsızlığa beynəlxalq ictimaiyyət tərəfindən münasibət bildirilməsinin vacibliyini qeyd ediblər.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlanıb. İlk olaraq İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının tərkibində dəyişiklik edilməsi haqqında məsələ müzakirə olunub. Məsələ ilə bağlı Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva məlumat verib. O qeyd edib ki, İctimai Televiziya və Radio Yayımı haqqında qanuna uyğun olaraq, İctimai Televiziya və Radio Yayımları Şirkətinin Yayım Şurasına Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Mətbuat Şurası tərəfindən irəli sürülmüş namizədlərin 6 illik səlahiyyət müddəti başa çatdığına görə, yeni namizədlərin irəli sürülməsi ilə bağlı Azərbaycan Respublikasının Audiovizual Şurası tərəfindən təşkilati tədbirlər görülüb.

Komitə sədri televiziyaların, o cümlədən İctimai Televiziyanın fəaliyyətinin dövlətimiz və cəmiyyətimiz üçün əhəmiyyətindən danışıb. O, cəmiyyətin maarifləndirilməsində, bədii zövqün formalaşdırılmasında, informasiya xidmətinin göstərilməsində, azərbaycançılıq ideologiyasının təbliği və Azərbaycan dilinin qorunması istiqamətində televiziyaların üzərinə düşən vəzifələrdən bəhs edib.

Müzakirələr zamanı komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlar İsa Həbibbəyli, Razi Nurullayev, Bəhruz Məhərrəmov, Etibar Əliyev, Sahib Alıyev, Ceyhun Məmmədov ölkəmizdə fəaliyyət göstərən televiziyaların mövcud durumu, televiziya proqramlarının keyfiyyəti barədə fikirlərini və bəzi qeydlərini səsləndiriblər.

Təqdim olunan namizədlərlə bağlı səsvermədə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından Həsən Cəfərov, Azərbaycan Milli Elmlər Akademiyasından Teymur Kərimli, Azərbaycan Mətbuat Şurasından Azər Həsrət İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının yeni üzvləri seçiliblər. *(Milli Məclisin qərarı qəzetimizin bugünkü nömrəsində dərc edilib).*

Sahibə Qafarova Yayım Şurasının yeni üzvlərini təbrik edib və onlara uğurlar arzulayıb. O, Milli Məclisin Sədri kimi yeni seçilmiş üzvlərə bəzi tövsiyələrini çatdırıb, deputatlar tərəfindən səsləndirilən bir sıra fikirlərə diqqət yetirmələrini söyləyib.

İclasda Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Mülki Prosessual Məcəlləsində, "Notariat haqqında", "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" və "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Polis haqqında", "Baytarlıq haqqında" və "Atçılıq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda təsdiq olunub.



## İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının tərkibində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

"Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinə əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun I hissəsinin 5-ci bəndinə və"İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 17.2-17.4-cü və 17.6-cı maddələrinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Aşağıdakı şəxslər 6 il müddətinə İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü seçilsinlər:

Həsən Şahhüseyn oğlu Cəfərov - namizədliyi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən irəli sürülmüşdür;
Teymur Həşim oğlu Kərimli - namizədliyi Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən irəli sürülmüşdür;
Azər Hacıqulu oğlu Həsrət - namizədliyi Azərbaycan Mətbuat Şurası tərəfindən irəli sürülmüşdür.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 2 may 2023-cü il*

Parlamentin spikeri Sahibə Qafarova gündəlikdəki növbəti 11 məsələnin birinci oxunuşda müzakirəyə çıxarılan qanun layihələri olduğunu söyləyib. O, növbəti məsələnin "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) olduğunu deyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov qanun layihəsi barədə məlumat verərək bildirib ki, sənəd ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim edilib. Deputat diqqətə çatdırıb ki, Ermənistanın törətdiyi beynəlxalq cinayətlərin bariz nümunəsi olan minalama fəaliyyəti nəticəsində 3377 nəfər vətəndaşımız zərər çəkib, onlardan 358 nəfəri uşaq, 38 nəfəri qadınlardır. 2020-ci il noyabrın 10-dan, yəni üçtərəfli Bəyanatın imzalandığı tarixdən bu günədək 140 mülki şəxs və 161 nəfər hərbi qulluqçu, ümumilikdə 301 nəfər mina partlayışları nəticəsində həlak olub və ya müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Ümumilikdə 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra 77890 hektar ərazi minalardan təmizlənib, 87 min mina və partlamamış hərbi sursat aşkarlanıb. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi bu istiqamətdə öz fəaliyyətini davam etdirir.

Minatəmizləmənin mühüm fəaliyyət növü olduğunu deyən millət vəkili bildirib ki, bu sahədə fəal iştirak edən, səmərəli əməkdaşlığa əhəmiyyətli töhfə verən, dövlətin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində və möhkəmləndirilməsində xidməti olan Azərbaycan vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər "Minatəmizləmə sahəsində xidmətlərə görə" medalı ilə təltif oluna bilərlər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Azay Quliyev "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. Bildirilib ki, layihədə "İctimai iştirakçılıq haqqında" qanunda istifadə edilən termin və anlayışların "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərinə uyğun olaraq aydın və birmənalı ifadə edilməsini təmin etmək üçün müvafiq dəyişikliklərin edilməsi nəzərdə tutulur. Təklif olunan dəyişikliklərin dəstəklənməsi ölkədə qərar qəbulu prosesində vətəndaşların iştirakının daha da genişlənməsinə, ictimai nəzarət mexanizminin təkmilləşdirilməsinə, ictimai iştirakçılığın təmin olunmasına məsul olan dövlət orqanlarının cavabdehliyinin artırılmasına xidmət edəcək.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair məlumat verib. Bildirib ki, layihə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Prezidenti tərəfindən təqdim edilib. Məqsəd Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəlik institutunun fəaliyyətinin təmin edilməsi ilə əlaqədar təsis edilən yeni vəzifələrin İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusuna uyğun olaraq təsnifləşdirilməsidir. Bununla bağlı "Dövlət qulluğu haqqında" qanunda müvafiq dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnaməyə görə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur bölməsidir. Səlahiyyətli nümayəndəliyə Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi rəhbərlik edir. Səlahiyyətli nümayəndənin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini var. Səlahiyyətli nümayəndə, onun müavinləri, səlahiyyətli nümayəndəliyin əməkdaşları Azərbaycan Respublikası Prezidenti Administrasiyasının əməkdaşlarıdır.

Layihədə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinin birinci təsnifata, səlahiyyətli nümayəndənin müavinləri vəzifəsinin ikinci təsnifata, nümayəndəlikdəki mütəxəssis vəzifələrinin isə üçüncü təsnifata aid edilməsi nəzərdə tutulur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Sonra Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "Torpaq islahatı haqqında", "Energetika haqqında", "Torpaq icarəsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. O, layihədə adları göstərilən qanunlara təklif edilən dəyişikliklərin uyğunlaşdırma və dəqiqləşdirmə xarakterli olduğunu deyib. Komitə sədri bildirib ki, qanunlara ediləcək dəyişikliklərə əsasən, bələdiyyə torpaqları bu məqsədlər üçün dövlət mülkiyyətinə və ya icarəsinə, elektrik enerjisi istehsal etmək istəyən fiziki və hüquqi şəxslərin icarəsinə birbaşa, yəni müsabiqə və hərrac keçirilmədən veriləcək. Həmçinin enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş torpaq sahəsində inşa ediləcək elektrik stansiyalarının tikintiyə icazə icraatı üçün tikinti layihəsi şəhərsalma sənədlərinə uyğun hesab ediləcək və aidiyyəti üzrə dövlət orqanlarının rəyinə ehtiyac olmayacaq.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verib. Diqqətə çatdırıb ki, yetkinlik yaşına çatmayan şəxslərin hüquqlarının daha səmərəli və effektiv qorunmasını təmin etmək məqsədilə qanunun 18.3-cü maddəsinə təklif edilən dəyişikliyə əsasən, yetkinlik yaşına çatmayanlar, məhkəmədə yalnız prokurorun iştirakı təmin edilmiş hallarda məhkəmənin qərarına əsasən daxili işlər orqanlarının yetkinlik yaşına çatmayanlar üçün müvəqqəti təcridetmə mərkəzlərinə yerləşdirilə bilərlər.

Qanunun 22-ci maddəsi isə Cinayət-Prosessual Məcəlləsinin 435-1-ci maddəsinə uyğunlaşdırılır. Belə ki, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsinin prosessual qaydaları bu Məcəllənin 435-1-ci maddəsi ilə ətraflı olaraq tənzimlənir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Parlamentin Sədri Sahibə Qafarova gündəliyin son 6 məsələsinin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə bağlı olduğunu söyləyib. Spiker diqqətə çatdırıb ki, gündəliyin 12-ci məsələsi Azərbaycan Respublikasının Ailə Məcəlləsində, 13-cü məsələsi Azərbaycan Respublikasının Mülki Məcəlləsində, 14-cü məsələsi "Sosial müavinətlər haqqında" qanunda, 15-ci məsələsi "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunda, 16-cı məsələsi "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" qanunda, 17-ci məsələsi "Sosial xidmət haqqında" qanunda dəyişikliklər edilməsi barədə birinci oxunuşda olan qanun layihələridir.

Sonra Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova 12-ci və 15-ci məsələləri - Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrini təqdim edib. Bildirib ki, Azərbaycan Prezidenti "Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2022-ci il 15 fevral tarixli Fərman imzalayıb. Fərmanda himayədar ailə institutunun inkişaf etdirilməsi və təşviqi, habelə bu sahə ilə bağlı müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı məsələlər öz əksini tapıb. Bununla əlaqədar olaraq, Ailə Məcəlləsinə təklif olunan dəyişikliklər himayədar ailə institutunun tətbiqi, həmçinin valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisəyə yerləşdirilmə prosesinin təkmilləşdirilməsi, onların müəssisələrə düşməsinin qarşısının alınması, bioloji ailələrinə qaytarılması məsələlərinin hüquqi tənzimlənməsini özündə ehtiva edir.

Qeyd edilib ki, layihədə beynəlxalq normativ hüquqi aktlardan, habelə övladlığagötürmə sahəsində qanunvericilik və institusional baxımdan əldə edilmiş təcrübədən istifadə edilib. Sənəddə himayədar ailə olmaq istəyən şəxslərin və himayədar ailə qayğısında olan uşaqların vahid elektron uçotu, himayədar ailələrin yaranması, himayədar valideyn-namizədlərlə müsahibələrin, təlimlərin keçirilməsi, uyğunlaşdırma mərhələsi, himayədar valideynlərlə müqavilə bağlanması, habelə himayədar valideyn olmaq istəyən şəxslərə dair tələblər, himayədar valideynlərin hüquq və vəzifələri, himayədar ailəyə verildikdən sonra uşağın monitorinqi və digər məsələlər öz əksini tapıb.

Komitə sədri diqqətə çatdırıb ki, layihədə valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsi ilə bağlı çevik bir mexanizm təsbit olunur. Daha bir mühüm məqam ondan ibarətdir ki, uşaq aşkar olunan zaman onun sağlamlığı və ya həyatı üçün birbaşa təhlükə olduqda və təcili yerləşdirilməsi zərurəti yarandıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan bu Məcəllənin 116.1-ci maddəsinə uyğun olaraq ilkin qiymətləndirməni aparmadan uşağın təcili yerləşdirilməsi ilə bağlı qərar qəbul edir. Həmçinin təklif olunan yeni əlavə və dəyişikliyə əsasən, bu orqan uşağın öz ailəsinə və ya qohumlarına qaytarılmasının və yaxud ailəsində qalmasının mümkünlüyünü müəyyən etdikdə, 14 iş günü müddətində əlavə qiymətləndirmənin aparılması və ailə inkişaf planını tərtib edir.

Qeyd olunub ki, "Azərbaycan Respublikasının Ailə Məcəlləsinə dəyişiklik edilməsi haqqında" qanun layihəsinin qəbulu ilə əlaqədar "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi nəzərdə tutulub. Layihədə himayədar valideyn (himayədar ailə) anlayışının, habelə himayədar ailəyə verilmiş uşaqların sosial müdafiəsi ilə əlaqədar müddəaların əlavə edilməsi təklif olunur.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov 13-cü və 16-cı məsələlər - Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri barədə məlumat verib. Bildirib ki, hər iki layihə "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə uyğun olaraq hazırlanıb.

Mülki Məcəllədə nəzərdə tutulan dəyişikliklər qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının müdafiəsinə yönəlib. Sənəddə uşaqlara qəyyum və himayəçinin təyin edilməsinin müəyyən prosedur və vaxt tələb etməsini nəzərə alaraq, həmin müddətdə uşağın qəyyumluq və ya himayəçilikdən kənarda qalmaması üçün bu funksiyanın həyata keçirilməsinin müvafiq icra hakimiyyəti orqanına həvalə olunması nəzərdə tutulur.

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" qanuna təklif olunan dəyişikliklərdə himayədar valideynə (himayədar ailəyə) verilmiş valideyn himayəsindən məhrum olmuş uşaqların həmin himayədar valideynin (himayədar ailənin) yaşayış yeri üzrə qeydiyyatının aparılması nəzərdə tutulur.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev 14-cü və 17-ci məsələləri - "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrini diqqətə çatdırıb. Bildirib ki, "Sosial müavinətlər haqqında" qanunun 5 maddəsinə 11 dəyişiklik təklif olunur. Dəyişikliklər mahiyyət etibarı ilə Ailə Məcəlləsinə edilən dəyişikliklərə uyğunlaşma xarakteri daşıyır və 2 yeni müavinət növünün təsis edilməsinə hüquqi əsaslar yaradılmasını özündə ehtiva edir. Qeyd olunub ki, qanunun 4-cü maddəsinə təklif olunan dəyişikliyə əsasən, himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə aylıq müavinət və himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün birdəfəlik müavinət növü təsis edilir. Aylıq müavinət himayədar ailəyə verilmiş uşaq 18 yaşına çatanadək hər ay olmaqla, birdəfəlik müavinətin isə ildə 4 dəfə (mart, iyun, sentyabr və dekabr aylarında) verilməsi nəzərdə tutulur. Müavinətin verilməsi və dayandırılması himayədar ailə ilə müvafiq icra hakimiyyəti orqanı arasında bağlanmış müqavilə əsasında tənzimlənir. Aylıq və birdəfəlik müavinət müqavilə əsasında himayədar valideynlərdən birinə təyin edilir.

Komitə sədri deyib ki, "Sosial xidmət haqqında" qanuna təklif olunan dəyişikliklər də Ailə Məcəlləsinə təklif edilən dəyişikliklərə uyğunlaşdırma ilə bağlıdır və texniki xarakter daşıyır.

Təqdim olunan son 6 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Heydər Əliyev İli 2023

# Müstəqil xarici siyasət quruculuğunda Heydər Əliyev strategiyası

Xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyi dünya azərbaycanlıları tərəfindən böyük ehtiram, minnətdarlıq və sevgi ilə qeyd olunur. Cənab Prezident İlham Əliyevin sərəncamı ilə "Heydər Əliyev İli" elan olunan cari ildə yalnız ölkəmizdə deyil, xarici dövlətlərdə də Ulu Öndərin əbədiyaşar xatirəsi hörmət və rəğbətlə anılır, onun şanlı irsi ölməz xatirələrdə yaşadılır.

Əlbəttə ki, Ulu Öndər Heydər Əliyev haqqında, onun Azərbaycan tarixində yeri, dövlət quruculuğunda müstəsna rolu, ölkəmizin beynəlxalq ictimaiyyətin müstəqil və tamhüquqlu bir üzvünə çevrilməsində əvəzedilməz xidmətlərini bir yazıda toplamaq mümkün deyil. Çünki söhbət həyatını xalqına və dövlətinə, onun inkişafına, müstəqilliyinin möhkəmləndirilməsinə həsr edən, özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi ilə xüsusi seçilən dahi şəxsiyyətdən gedir.

30 il bundan öncə, 1993-cü ilin iyun ayında xalqın tələbi ilə hakimiyyətə qayıdan, beləliklə də, müstəqil Azərbaycanın qurucusuna çevrilən Heydər Əliyev şəxsiyyəti nəinki ölkəmizdə siyasi sabitlik və təhlükəsizliyin bərqərar olmasına nail oldu, həmçinin dahi liderin rəhbərliyi altında həyatın bütün sahələrində olduğu kimi, Azərbaycanın milli maraqlarına əsaslanan müstəqil xarici siyasət kursunun təməli qoyuldu.

*Müstəqil xarici siyasətin təməlində dayanan vətənpərvərlik, Azərbaycanın tarixi yaddaşının bərpası istiqamətində Ulu Öndər tərəfindən atılmış qətiyyətli addımlar, milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş tədbirlər əsas rol oynadı. Beynəlxalq təşkilatlarla yanaşı, xarici dövlətlərlə bərabərtərəfli əlaqələrin inkişafı, dünyanın güc mərkəzləri ilə dəqiq və nəticəyə hesablanmış, Azərbaycanın dövlət maraqlarının qorunduğu münasibətlər sisteminin formalaşdırılması məhz Ulu Öndərin təməlini qoyduğu xarici siyasət ilə bağlıdır.*

*Ulu Öndərin xarici dövlətlərə etdiyi çoxsaylı səfərlər, bu səfərlər çərçivəsində digər dövlətlərə ölkəmizin mövqeyi haqqında birinci şəxs tərəfindən məlumatın verilməsi ölkəmizin üzləşdiyi informasiya blokadasının sındırılmasına gətirib çıxardı, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırıldı.*

Dövlət müstəqilliyi qazanandan sonra ölkənin qarşısında duran mühüm vəzifələrdən biri milli mənafelərə əsaslanan səmərəli və praqmatik xarici siyasət kursunun müəyyən edilərək həyata keçirilməsi idi. Bu istiqamətdə ilk öncə müstəqil xarici siyasətin təməlində dayanan vətənpərvərlik, Azərbaycanın tarixi yaddaşının bərpası istiqamətində Ulu Öndər tərəfindən atılmış qətiyyətli addımlar, milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş tədbirlər əsas rol oynadı. Beynəlxalq təşkilatlarla yanaşı, xarici dövlətlərlə bərabərtərəfli əlaqələrin inkişafı, dünyanın güc mərkəzləri ilə dəqiq və nəticəyə hesablanmış, Azərbaycanın dövlət maraqlarının qorunduğu münasibətlər sisteminin formalaşdırılması məhz Ulu Öndərin təməlini qoyduğu xarici siyasət ilə bağlıdır.

## Xarici siyasət strategiyasının başlıca vəzifələri və prioritetləri

Ulu Öndər Heydər Əliyev 1993-cü ilin 15 iyun tarixində Milli Məclisin Sədri seçilərkən, yəni Qurtuluş Missiyasının başlandığı gün parlamentin tarixi iclasında çıxışında xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini, region və dünya dövlətləri ilə əlaqələrin əsas istiqamətlərini müəyyənləşdirdi. Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasət olduğunu nəzərə alaraq, o, daim qeyd edib ki, dövlətimizin sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır. Bildirdi ki, bu, elə bir xarici siyasət olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin.

Ümummilli Lider hakimiyyətə qayıdışından sonra Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq, müxtəlif ölkələrin Qafqaz və bilavasitə Azərbaycan Respublikası ilə bağlı maraqlarını və bu bölgədə nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Həmin dövrün mürəkkəbliyi və çətinliyi fonunda ölkəmizin həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi təmin olundu, o cümlədən enerji resurslarının dünya bazarlarına çıxarılması, nəqliyyat infrastrukturunun inkişafı, xüsusilə keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı işğalçı tərəfə beynəlxalq təzyiqin gücləndirilməsi istiqamətində praqmatik və hərtərəfli xarici siyasət strategiyasının əsası qoyuldu.

Sözsüz ki, Heydər Əliyevin xarici siyasət strategiyasının bir nömrəli prioriteti, Ulu Öndərin Milli Məclisdəki 1993-cü il 15 iyun tarixli çıxışında da qeyd etdiyi kimi, "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumaq, möhkəmləndirmək, inkişaf etdirmək" olmuşdur. Məlumdur ki, bu yolda dövlətimizin qarşısında duran ən böyük təhdid Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti və onun ağır nəticələri idi. Ümummilli Lider "Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır" deyərək keçmiş münaqişənin həllini ən vacib məsələ kimi xarici siyasət gündəliyində müəyyən etmişdi. Bu istiqamətdə atılmış mühüm addımlardan biri, heç şübhəsiz ki, Azərbaycanın ağır siyasi və iqtisadi vəziyyəti, habelə Ermənistanın davam edən hücumları kontekstində atəşkəsin əldə edilməsi oldu. 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi.

1993-1995-ci illərdə Azərbaycan Prezidentinin bir sıra xarici ölkələrə səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı. Dünya birliyinin Azərbaycana münasibətdə mövqeyindəki təkamül ATƏT-in 1994-cü il Budapeşt və 1996-cı il Lissabon sammitlərində xüsusilə aydın şəkildə özünü göstərdi. Lissabon sammitində ilk dəfə olaraq, Ermənistan istisna olmaqla ATƏT-in bütün iştirakçı dövlətləri münaqişənin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədilər. Bu sammit zamanı Ermənistan tarix boyu unutmayacağı təzyiqlərlə üzləşdi. Bu, Azərbaycanın xarici siyasətinin böyük uğuru idi.

Münaqişənin həlli ilə bağlı aparılan məqsədyönlü siyasət nəticəsində çoxsaylı beynəlxalq təşkilatlar, o cümlədən BMT Təhlükəsizlik Şurası tərəfindən mühüm qərar və qətnamələr qəbul edildi. Bu sənədlər öz-özlüyündə münaqişənin həllində birbaşa açar rolunu oynamasalar da, onlar birmənalı şəkildə münaqişənin həllinin möhkəm hüquqi bazasını təşkil edirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu məsələ ilə bağlı illər sonrakı çıxışını xatırlatmaq istərdim. 2020-ci ilin 10 dekabr tarixində keçirilən Zəfər paradındakı nitqində dövlət başçısı qeyd etdi ki, "Biz uzun illər bütün beynəlxalq tədbirlərdə bu məsələ ilə bağlı həqiqətləri çatdırırdıq, böyük iş aparılmışdır və bu işin səmərəsi oldu. Baxmayaraq ki, biz ərazi bütövlüyümüzü döyüş meydanında qazandıq, hesab edirəm ki, son illər ərzində apardığımız siyasi və diplomatik səylər öz bəhrəsini verdi, bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdı və bunu dəstəklədi".

Beləliklə də, Ulu Öndərin xarici dövlətlərə etdiyi çoxsaylı səfərlər, bu səfərlər çərçivəsində digər dövlətlərə ölkəmizin mövqeyi haqqında birinci şəxs tərəfindən məlumatın verilməsi ölkəmizin üzləşdiyi informasiya blokadasının sındırılmasına gətirib çıxardı, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırıldı.

Ulu Öndər Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının ali kürsüsündən, habelə 1995-ci ilin oktyabrında BMT-nin 50 illiyi münasibətilə Baş Assambleyada çıxışlarında Azərbaycandakı mövcud siyasi-iqtisadi vəziyyət ilə yanaşı, dünya birliyinə münasibətdə Azərbaycan siyasətinin prinsiplərini bəyan etdi. Ulu Öndərin ali beynəlxalq kürsülərdə etdiyi çıxışlarında təcavüzün pislənilməsi ilə yanaşı, sülh gündəliyinin önə çəkilməsi dahi Heydər Əliyevin praqmatik və uzaqgörən siyasətinin bariz nümunəsi olmuşdur. Bu xüsusda 1995-ci ildə BMT Baş Assambleyasında Ulu Öndərin səsləndirdiyi fikirləri yada salmaq istərdim: "Azərbaycan xalqının iradəsini ifadə edərək bəyan edirəm ki, biz Yer kürəsinin hər hansı bir nöqtəsində və hər hansı bir formada təcavüzkarlığı pisləyirik. Biz sülh istəyirik. Biz bütün dünyada sülh istəyirik, biz regionda sülh istəyirik, bütün qonşu dövlətlərlə sülh və mehriban münasibətlər istəyirik". Göründüyü kimi, hazırkı postmünaqişə mərhələsində xarici siyasət gündəliyimizdə aktuallıq təşkil edən sülh dialoqunun əsasları da Ulu Öndər müdrikliyindən qaynaqlanır.

Heydər Əliyevin xarici siyasət strategiyasının prioritetləri sırasında qonşu dövlətlər başda olmaqla, dünyanın bir çox dövlətləri ilə qarşılıqlı faydalı ikitərəfli münasibətlərin qurulması və xarici siyasətimizin coğrafiyasının genişlənməsi də önəmli yer tutmuşdur. Hazırda Azərbaycanın genişlənən, hərtərəfli beynəlxalq əlaqələrinin əsasında Ümummilli Lider Heydər Əliyevin xarici siyasət konsepsiyasının durduğu şübhəsizdir. İndi Azərbaycanın dünyanın müxtəlif ölkələrində səfirliklərinin, baş konsulluqlarının, o cümlədən beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliklərinin aktiv fəaliyyət göstərməsi bu konsepsiyanın təməllərinin bəhrəsidir.

*Ümummilli Lider Heydər Əliyev çoxtərəfli səviyyədə dövlətimizin mövqeyinin möhkəmləndirilməsi, nüfuzunun artırılması istiqamətində mühüm işlər görmüş, onun fəaliyyəti nəticəsində Azərbaycan beynəlxalq münasibətlər sisteminin güvənilən və uğurlu subyektinə çevrilmişdir. Azərbaycanın aparıcı beynəlxalq təşkilatlara üzv olması və onların tribunasından çıxışların səsləndirilməsi, müxtəlif beynəlxalq təşkilatlarla formalaşdırılan geniş müqavilə-hüquq bazası, regional və qlobal əhəmiyyətli təşəbbüslərin, o cümlədən layihələrin həyata keçirilməsinin əsasının qoyulması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.*

Azərbaycan Respublikasının xaricdə diplomatik missiyalarının ümumi sayı artıq 89-a çatıb (66 səfirlik, 6 daimi nümayəndəlik, 9 baş konsulluq, 8 səfirlik və təmsilçilik ofisi). Həmçinin Azərbaycanda 88 ölkənin və beynəlxalq təşkilatın nümayəndəlikləri, 15 xarici dövlətin konsulluqları akkreditə olunub. Birmənalı şəkildə qeyd edə bilərik ki, bu rəqəmlər ölkəmizin hərtərəfli beynəlxalq əlaqələrinin göstəricisidir.

Azərbaycanın beynəlxalq münasibətlər sistemində nüfuzunun daha bir göstəricisi onun beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətinin dəstəklənməsində və Azərbaycanın çoxtərəfli diplomatiyasında öz əksini tapır. Ümummilli Lider Heydər Əliyev çoxtərəfli səviyyədə dövlətimizin mövqeyinin möhkəmləndirilməsi, nüfuzunun artırılması istiqamətində mühüm işlər görmüş, onun fəaliyyəti nəticəsində Azərbaycan beynəlxalq münasibətlər sisteminin güvənilən və uğurlu subyektinə çevrilmişdir. Azərbaycanın aparıcı beynəlxalq təşkilatlara üzv olması və onların tribunasından çıxışların səsləndirilməsi, müxtəlif beynəlxalq təşkilatlarla formalaşdırılan geniş müqavilə-hüquq bazası, regional və qlobal əhəmiyyətli təşəbbüslərin, o cümlədən layihələrin həyata keçirilməsinin əsasının qoyulması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində bir sıra beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, UNESCO, Avropa İttifaqı, NATO, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və başqaları ilə geniş əlaqələr qurulmuş və inkişaf etdirilmişdir ki, bu da ölkəmizin beynəlxalq sferada mövqeyinin möhkəmləndirilməsinə xidmət etmişdir.



2011-ci ilin oktyabr ayında Azərbaycan tarixində ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. BMT-yə üzv dövlətlərin 155-nin dəstəyi nəticəsində ölkəmizin BMT TŞ-yə seçilməsi Azərbaycanın dünyada qazanmış olduğu hörmət və qlobal təhlükəsizliyə töhfəsinin göstəricisi idi. Bu gün Azərbaycan dünyada BMT-dən sonra ikinci ən böyük siyasi platforma hesab olunan Qoşulmama Hərəkatına sədrlik edir və Qoşulmama Hərəkatına Azərbaycanın sədrlik müddətinin daha bir il uzadılması barədə qərar Hərəkat çərçivəsində Azərbaycana göstərilən etimadın nümunəsidir. Bu gün bir çox ölkə və beynəlxalq təşkilatın rəhbərləri Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin nümunəvi olduğunu qətiyyətlə vurğulayırlar.

Heydər Əliyevin şah əsərlərindən və Azərbaycan xalqına, dövlətçiliyimizə ərməğanlarından biri də əsasında xalqımızın milli maraqlarının dayandığı milli neft strategiyasıdır. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində dövrün çətinliklərinə baxmayaraq, "Əsrin müqaviləsi"nin imzalanması ilə uğurlu enerji siyasətimizin əsası qoyuldu. "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmizin inkişafı üçün yeni imkanlar yarandı, həmçinin Azərbaycana böyük həcmdə investisiyalar qoyulmağa başlandı və Xəzər dənizində tarixdə ilk dəfə olaraq beynəlxalq əməkdaşlıq prosesi başladı. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrildi və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edildi. Bu çərçivədə digər vacib məqam da odur ki, məhz Ümummilli Lider ölkəmizdə neftdən əldə edilən gəlirin gənclərin təhsilinin inkişafına yönəldilməsi, başqa sözlə desək, "qara qızıl"ın insan kapitalına çevrilməsi strategiyasının əsasını qoyub. Bu siyasətin nəticəsində çoxsaylı azərbaycanlı gənclər qabaqcıl xarici təhsil müəssisələrində oxumaq imkanı qazanıblar.

Heç şübhəsiz ki, Ulu Öndərin qoyduğu bu möhkəm təməl üzərində bu gün möhtərəm cənab Prezident İlham Əliyevin daha da genişləndirdiyi və strateji düşüncəni özündə ehtiva edən enerji siyasəti, həm ənənəvi enerji resurslarının inkişaf etdirilməsi, həm də Azərbaycanın bölgədə və Avropada alternativ enerji resurslarının əsas mənbəyi və ixracatçısına çevrilməsi üzrə həyata keçirdiyi işlər Azərbaycanın daha da inkişafının əsas şərtlərindəndir.

## Heydər Əliyevin ən böyük arzusu

Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu işğal altında olan torpaqlarımızın işğaldan azad olunması, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması idi. Ümummilli Lider hər zaman böyük əminliklə torpaqlarımızın azad olunacağına və xalqımızın öz yurd-yuvalarına, Şuşaya, Laçına və digər dədə-baba torpaqlarımıza qayıdacağını bildirirdi.

Bu missiya Ulu Öndər irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən yerinə yetirildi. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində zəfər qazanaraq işğal altında olan torpaqlarımızı azad etdi. 30 ilə yaxın müddətdə Ermənistan işğalına və talanına məruz qalmış ərazilərimizin işğaldan azad edilməsi, bu ərazilərdən etnik təmizlənməyə məruz qalmış məcburi köçkünlərimizin öz doğma torpaqlarına geri qayıtması həm böyük siyasi, həm böyük strateji, həm də çox böyük mənəvi əhəmiyyət daşıyır.

Böyük qələbə nəticəsində azad edilmiş torpaqlarımız dövlət başçısı İlham Əliyevin rəhbərliyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəal iştirakı ilə yenidən dirçəlir. Bu gün üçrəngli bayrağımız işğaldan azad olunmuş torpaqlarımızda qürurla dalğalanır, Azərbaycan azad etdiyi ərazilərini qarış-qarış yenidən qurur və bərpa edir. Bu nəcib işlərdə Heydər Əliyev Fondu yaxından iştirak edir.

Azərbaycanın postmünaqişə dövründə regionda sülh səyləri xarici siyasət xəttimizdə yeni dövrün başlanğıcının göstəricisidir. 30 ilə yaxın davam etmiş hərbi işğala son qoyulması nəticəsində xarici siyasətimizin qarşısında ən böyük çağırış olan keçmiş münaqişənin həll olunması, regionda yeni reallıqların və gündəliyin yaranması xarici siyasətimizin üfüqlərinin genişlənməsində də mühüm rol oynayıb.

*Azərbaycanın postmünaqişə dövründə regionda sülh səyləri xarici siyasət xəttimizdə yeni dövrün başlanğıcının göstəricisidir. 30 ilə yaxın davam etmiş hərbi işğala son qoyulması nəticəsində xarici siyasətimizin qarşısında ən böyük çağırış olan keçmiş münaqişənin həll olunması, regionda yeni reallıqların və gündəliyin yaranması xarici siyasətimizin üfüqlərinin genişlənməsində də mühüm rol oynayıb.*

*Bu gün cənab Prezident İlham Əliyevin rəhbərliyi altında ikitərəfli, o cümlədən çoxtərəfli platformalarda ölkəmiz üçün səmərəli nəticələr verən, hazırkı mürəkkəb konyunkturada bərabərhüquqlu münasibətlərin inkişafına istiqamətlənən müstəqil və prinsipial xarici siyasət kursunun icrası nəticəsində ölkəmizin beynəlxalq nüfuzu daha da artmaqdadır.*

Bu gün cənab Prezident İlham Əliyevin rəhbərliyi altında ikitərəfli, o cümlədən çoxtərəfli platformalarda ölkəmiz üçün səmərəli nəticələr verən, hazırkı mürəkkəb konyunkturada bərabərhüquqlu münasibətlərin inkişafına istiqamətlənən müstəqil və prinsipial xarici siyasət kursunun icrası nəticəsində ölkəmizin beynəlxalq nüfuzu daha da artmaqdadır.

Əminik ki, Azərbaycan Prezidentinin rəhbərliyi altında Azərbaycan dövləti və xalqı bundan sonra da ölkəmizin müstəqilliyini daha da möhkəmləndirəcək, bəzi mənfur xarici dairələrin öz çirkin planlarını Azərbaycanda həyata keçirməsinə imkan verməyəcək, daim həmrəylik, milli birlik, vahid amal uğrunda yumruq kimi bir olacaqdır.

Bütün bu nailiyyətlərimizin əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən Ulu Öndər Heydər Əliyevin siyasi kursu dayanır.

*Əminik ki, Ulu Öndərimizin ruhu şaddır və Azərbaycan var olduqca Ümummilli Lider Heydər Əliyev də var olacaq.*

*Anadan olmasının 100-cü ildönümündə müstəqil dövlətimizin banisi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevi dərin hörmət və minnətdarlıqla yad edirik.*

**Ceyhun BAYRAMOV,**
***Azərbaycan Respublikasının xarici işlər naziri***



# Heydər Əliyev İli 2023

## Əbədi müstəqilliyimizin banisi

Mayın 2-də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan tədbir keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin komitənin foyesində ucaldılan büstü ziyarət olunub, önünə gül dəstələri düzülərək əziz xatirəsi ehtiramla yad edilib.







Tədbirdə giriş nitqi söyləyən Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov hər zaman azərbaycanlı olması ilə fəxr edən, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə vətəninə, xalqına bağlı olan dünyaşöhrətli siyasətçi və böyük dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin bütün dövrlərində Vətən və xalq qarşısında misilsiz xidmətləri, xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi barədə məlumat verib. O bildirib ki, Ümummilli Lider Heydər Əliyev bütün həyatı boyu Azərbaycanın və onun xalqının rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanıb. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdı. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksəlib. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasını, onun uzaqgörən və müdrik siyasətini keyfiyyətcə yeni müstəvidə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi, həmçinin gərgin əməyi və yorulmaz fəaliyyəti ilə respublikamızda aparılan islahatlardan və əldə olunmuş böyük nailiyyətlərdən bəhs edən Tahir Budaqov ölkəmizin sürətlə və hərtərəfli inkişaf etməsini, daha da qüdrətlənməsini xüsusi vurğulayıb. Qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz 30 ilə yaxın işğal altında olan torpaqlarımızı 44 günlük Vətən müharibəsində azad edib, ərazi bütövlüyümüz bərpa olunub.

Sonra Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunan film nümayiş olunub.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü Əli Həsənov, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev və Dövlət Statistika Komitəsinin Ümumi şöbəsinin müdiri Sevda Süleymanova Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən bəhs edərək, tarixə öz adını əbədi həkk etmiş nadir şəxsiyyətin, hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilmiş qüdrətli siyasi xadimin həyat və fəaliyyətindən danışıblar. Dahi şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi illərin intibah, milli tərəqqi, müstəqil dövlət quruculuğu dövrü olduğu qeyd edilən tədbirdə Ulu Öndərin müstəqil Azərbaycanın inkişafındakı misilsiz xidmətləri minnətdarlıq hissi ilə xatırlanıb. Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilən uğurların Ulu Öndər Heydər Əliyevin zəkasının təcəssümü, bizə əmanət qoyduğu ideyalarının təntənəsi olduğunu bildirblər.

Sonra Dövlət Statistika Komitəsinin aparatının bir sıra əməkdaşlarına Yeni Azərbaycan Partiyası sıralarına keçmələri ilə bağlı vəsiqələr təqdim olunub, eyni zamanda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan şahmat üzrə turnirin qalibləri mükafatlandırılıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## ADA Universitetində "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda konfrans keçirilib






Mayın 2-də ADA Universitetində 30-dan çox ölkənin 60-dək nümayəndəsinin iştirakı ilə "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfrans Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilib.



AZƏRTAC xəbər verir ki, konfransda ABŞ dövlət katibinin sabiq köməkçisinin müavini, Özbəkistanın Ali Məclisi Senatı sədrinin keçmiş birinci müavini və digər qonaqlar iştirak ediblər.

Konfransın ilk sessiyası ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilib. O vurğulayıb ki, tədbir Avrasiya regionunda gələcək tendensiyaların müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyır.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev çıxışında bildirib ki, artıq 4-cü dəfədir ADA Universiteti belə bir konfransa evsahibliyi edir. Konfransın siyasət, elmi və beynəlxalq münasibətlər üzrə mühüm əhəmiyyətə malik olduğunu deyən Hafiz Paşayev qeyd edib ki, regional və qlobal gündəmdəki məsələləri müzakirə etmək üçün ADA Universiteti önəmli məkan hesab olunur. Burada bildirilən fikirlər daha sonra dünyanın bir çox ölkəsində məqalələr şəklində jurnallarda və hətta sosial mediada işıqlandırılır.

Rektor vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev geosiyasət sahəsində mühüm addımlar atmış şəxsiyyət idi. "O, Sovet İttifaqında siyasi yüksəkliklərə çatan yeganə azərbaycanlı idi. 1990-cı illərdə Azərbaycan böhranın ortasında idi. Müharibə, torpaqlarımızın Ermənistan tərəfindən işğalı, iqtisadi böhran - məhz bu şəraitdə Ulu Öndər Heydər Əliyev ölkəni idarə etməyə başlayıb. Ümummilli Lider hakimiyyətə gəldikdən sonra müharibə dayandırılıb, iqtisadiyyat sabitləşdirilib", - deyə Hafiz Paşayev qeyd edib.

Konfransda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov çıxış edərək, "Əsrin müqaviləsi"nin əhəmiyyətindən, Bakı-Tbilisi-Ceyhan layihəsindən və Azərbaycanın təşəbbüskarı olduğu nəhəng nəqliyyat dəhlizləri layihələrinin önəmindən bəhs edib. Deyib ki, ölkəmizə 300 milyard dollara yaxın investisiya qoyulub. Azərbaycan alternativ enerji resurslarını paylaşan ölkədən tranzit ölkəyə çevrilib.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, ölkəmiz bir çox beynəlxalq, əsasən də nəqliyyat və tranzit sahələrə aid layihələrin təşəbbüskarı olub. Həmçinin Ulu Öndər Heydər Əliyevin Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin əsasını qoyub.

Nazir vurğulayıb ki, hazırda dünyada baş verən hadisələr, müharibələr alternativ tranzit yollarına ehtiyacın olduğunu bir daha göstərir, bu da Orta dəhlizin əhəmiyyətini artırır. "Son 10 il ərzində biz bir neçə yeni hava limanı inşa etdik. Hesablamalarımıza görə, qarşıdakı beş il ərzində ölkəmiz tərəfindən tranzit daşımaların həcmi 23 milyon ton olacaq. Onu da qeyd etmək lazımdır ki, Orta dəhliz yalnız böhran zamanı alternativ olaraq görünməli deyil", - deyə Rəşad Nəbiyev əlavə edib.

Konfransın ikinci sessiyası ABŞ Hərbi Dəniz Donanması Ali Məktəbinin nümayəndəsi Brenda Şafferin moderatorluğu ilə keçirilib.

Çıxış edənlər - ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-nin Minsk qrupunun keçmiş həmsədri Mətyu Brayzə, Özbəkistan Ali Məclisinin Senatı sədrinin birinci müavini Sadıq Safayev, Gürcüstanın ABŞ-də və Kanadada sabiq səfiri Tedo Caparidze, Şanxay Əməkdaşlıq Təşkilatının sabiq Baş katibi Bolat Nurqaliyev və ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə katibinin köməkçisinin keçmiş müavini David Merkel qeyd ediblər ki, gənc Azərbaycan dövlətini xaos dolu illərdən çıxararaq ayağa qaldırdığına görə Heydər Əliyevin fəaliyyəti hər zaman yüksək dəyərləndirilir.

Bildirilib ki, Heydər Əliyev sovet dövründə çox önəmli vəzifələrə yüksəlib və ittifaqda özünün siyasi müdrikliyinə görə tanınıb.

## Ailə-hüquq münasibətlərini tədqiq edən dərslik

Ailə hüququ müasir hüququn xüsusi aktuallıq kəsb edən tədqiqat predmeti olaraq, bəşəri miqyasda yüksək mövqe qazanmış ailə institutunun cəmiyyətdəki yeri və roluna, habelə ailədaxili münasibətlərin normativ əsaslarına elmi nəzər salır. Bu xüsusda hər bir dövlətin ailə qanunvericiliyinin müqayisəli təhlili və araşdırılması, qabaqcıl təcrübələrin öyrənilərək praktikada tətbiqi məsələləri də mühüm əhəmiyyət kəsb edir.

Ailənin bütün sivil dövlətlərdəki sosial statusu ailə qanunvericiliyi ilə bağlı ictimai maarifləndirmə işinin yeni dövrün tələblərinə uyğunlaşdırılmasını, eləcə də hüquqi məlumatlandırma məqsədinə xidmət edən əyani vəsaitlərin - elmi monoqrafiyaların, dərsliklərin və s. hazırlanmasını obyektiv zərurətə çevirir.

Hüquq üzrə elmlər doktoru, professor İsaxan Vəliyevin müəllifliyi ilə bu günlərdə "Elm-Təhsil" nəşriyyatında çapdan çıxmış "Ailə hüququ" dərsliyi Ümummilli Lider, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tədris-Metodiki Şurasının 18 aprel 2023-cü il tarixli qərarı əsasında nəşr edilmiş dərsliyin elmi redaktoru və ön sözünün müəllifi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin sədri, hüquq üzrə elmlər doktoru Fərhad Abdullayevdir.

Dərsliyin ön sözündə qeyd edilir ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında ailə, qadın və uşaq hüquqları ilə bağlı fundamental hüquqi müddəalar əksini tapıb. Konstitusiyada həmçinin hər bir vətəndaşın nikah hüququ təsbit edilib, dövlətin ailəyə qayğı siyasətinin əsas konturları müəyyənləşib. Ailə və gender siyasətinin həyata keçirilməsi məqsədilə 1998-ci il 14 yanvar tarixdə ayrıca Dövlət Komitəsinin yaradılması da bu istiqamətdə mühüm addımlardan olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən etibarən ailə, qadın və uşaq hüquqları ilə bağlı dövlət siyasəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyub, gender bərabərliyinin hüquqi təminatlarının gücləndirilməsi istiqamətində mühüm tədbirlər görülüb.




Ümumilikdə, belə bir dərsliyin hazırlanması deməyə əsas verir ki, ailə institutu, onun hüququ tənzimlənməsi, ənənəvi və müasir inkişaf tendensiyaları Azərbaycanın hüquqşünas alimlərinin diqqət mərkəzindədir. Ön söz və 8 bölmədən ibarət dərslikdə Azərbaycan Respublikasının ailə qanunvericiliyi ilə bağlı aktual hüquqi məsələlər elmi təhlil süzgəcindən keçirilib və kompleks şəkildə şərh edilib. Dərslikdə ailə institutunun mahiyyəti hüquqi rakursdan şərh edilir, ailə, cəmiyyət və hüquq kimi anlayışların qarşılıqlı əlaqəsinə toxunulur. Bu isə dərslikdən istifadə edən hər kəsə ailənin formalaşması və nikaha xitam verilməsi ilə bağlı yaranan münasibətləri dərindən dərk etməyə, ailə hüququnun predmeti haqqında dolğun məlumat əldə etməyə imkan verir.

Dərslikdə ailə hüquq münasibətlərinin müxtəlif aspektlərinə diqqət yetirilməklə ailə qanunvericiliyinin vəzifə və məqsədləri ətraflı şəkildə izah edilir. Daha sonra ailə hüququ nəzəriyyəsinin bir sıra mürəkkəb və mübahisəli məsələlərinə toxunulur, eyni zamanda, xarici ölkələrin qanunvericiliyindən konkret nümunələrə də yer verilir.

Dərsliyin hazırlanmasında müasir tədris vəsaitlərindən, xüsusi ədəbiyyatdan, habelə yerli və xarici hüquqşünasların əsərlərindən məqsədyönlü şəkildə istifadə edilib, mütərəqqi hüquqi təcrübələrin Azərbaycanda tətbiqi məqsədilə səmərəli təkliflər irəli sürülüb. Dərslikdə həmçinin qlobal sosial dəyişikliklərin, mədəni transformasiyanın, cəmiyyətin inkişaf tendensiyalarının və digər amillərin ailə institutuna təsiri elmi-nəzəri əsasda tədqiq olunub.

Dərsliyin ayrı-ayrı bölmələrində ailə hüququ anlayışı, predmeti, metodu; prinsip və funksiyaları; ailə-hüquq münasibətləri; nikahın bağlanma qaydası və şərtləri; nikaha xitam verilməsi; ər-arvadın hüquq və vəzifələri; valideyn və uşaqlar arasında hüquq münasibətləri; valideynlərin və uşaqların ailə-hüquq statusunun rəsmiləşdirilməsi qaydaları; valideynlik hüquqlarının məhdudlaşdırılması və bu hüquqdan məhrumetmə; əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə yaranan ailə-hüquq münasibətlərinin tənzimlənməsi; uşağın ailə-hüquq vəziyyəti, tərbiyəsi və digər aktual məsələlərə geniş yer ayrılıb.

Haqqında bəhs edilən dərslik ölkəmizdə ailə hüququ nəzəriyyəsinin, qanunvericiliyin müvafiq müddəalarının mənimsənilməsi, habelə tələbələrin normativ-hüquqi materiallarla müstəqil işləmək bacarıqlarının inkişafı, vətəndaşların qanunla qorunan mənafelərinin müdafiəsi üzrə konkret problemlərin həlli yollarına işıq salınması baxımından mühüm əhəmiyyətə malikdir.

Dərslikdə diqqəti cəlb edən məqamlardan biri də ölkəmizdə ailə qanunvericiliyindəki hüquqi boşluqların, mübahisəli məqamların gündəmə gətirilməsidir. Bu mənada tanınmış alimin Ailə Məcəlləsinin daha da təkmilləşdirilməsi ilə bağlı irəli sürdüyü təkliflər, digər ölkələrin qanunvericiliyi ilə apardığı müqayisəli təhlillər xüsusi maraq doğurur.

Ümumilikdə, "Ailə hüququ" dərsliyi cəmiyyətin hüquqi yetkinlik səviyyəsinin yüksəldilməsi, insanların bu sahədə hansı hüquq və vəzifələrə malik olmaları ilə bağlı maarifləndirilməsi baxımından son dərəcə əhəmiyyətli, elmi-nəzəri və metodoloji əhəmiyyətə malik əyani mənbədir.

*"Azərbaycan"*

## DTX əməkdaşları "Heydər zirvəsi"nə yürüş təşkil ediblər




Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Dövlət Təhlükəsizliyi Xidmətinin bir qrup əməkdaşı Ulu Öndərin adını daşıyan, Böyük Qafqaz sıra dağlarının Başdağ silsiləsinin Qızıl Qaya massivində, dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən "Heydər zirvəsi"nə növbəti yürüş təşkil edib.

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən bildirilib ki, yürüş iştirakçıları relyef və iqlim şəraitinin sərt və mürəkkəb olmasına baxmayaraq, müəyyən olunmuş yerə vaxtında çatıb, dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla anıblar. Onlar Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldaraq, Dövlət Təhlükəsizliyi Xidmətinin adı və emblemi olan plakatı, həmçinin işğaldan azad olunmuş ərazilərdəki təbii yataqlardan götürülən qaya parçasından hazırlanmış və üzərində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünü əks etdirən xatirə daş lövhəsini zirvəyə yerləşdiriblər.



# Heydər Əliyev İli 2023

# Azərbaycanda meliorasiya və su təsərrüfatının inkişafında Heydər Əliyevin əvəzsiz xidmətləri olub

**Azərbaycanın müasir tarixinin taleyüklü hadisələrlə dolu olan uzun bir dövrü Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi istər 1969-1982-ci, istərsə də 1993-2003-cü illər respublikamızın sözün həqiqi mənasında çiçəkləndiyi, hərtərəfli inkişaf dövrü olmuşdur.**

Siyasi və iqtisadi müstəqilliyimizin təməli Heydər Əliyevin hələ Azərbaycana birinci rəhbərliyi dövründə qoyulmuşdur. Müstəqillik illərində isə məhz Ulu Öndərin gərgin səyləri, düşünülmüş müdrik siyasi kursu sayəsində Azərbaycan nəinki öz suverenliyini qoruyub saxlamış, onu əbədi prosesə çevirmişdir.

Hələ ötən əsrin 60-cı illərinin sonunda Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə irəli çəkilməsi ilə xalqımız tarixən formalaşmış zəngin dövlətçilik ənənələrini üzə çıxarmaq, gələcək müstəqilliyinə etibarlı zəmin yaratmaq şansı qazanmışdır. Ümummilli Lider respublika rəhbərliyinə gəlişinin ilk illərindən etibarən mərkəzin ideoloji maneələrini aradan qaldırmaqla xalqın milli şüurunu oyatmağa, müstəqillik duyğularını gücləndirməyə çalışmışdır. Ulu Öndərin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq həmin dövrdə ictimai şüurdakı istiqlal duyğuları aşkara çıxaraq yeni siyasi məzmun kəsb etməyə başlamış, respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşmışdır. Azərbaycan xalqı özünün müstəqil inkişaf yolunda məhz Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə əsası qoyulmuş zəngin iqtisadi-siyasi, mənəvi və intellektual potensiala istinad etmişdir.

Böyük strateq olan Ulu Öndər bu reallığı da yaxşı bilirdi ki, xalqın siyasi müstəqilliyinin təməlini məhz onun iqtisadi azadlığı şərtləndirir. Təsadüfi deyil ki, 1969-1982-ci illərdə iqtisadi həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın quruculuq salnaməsinin ən dolğun, şərəfli səhifələrini təşkil edir. Müstəqil Azərbaycanın keçid dövrünü başa vuraraq dünya iqtisadiyyatına inteqrasiyasının təməli də məhz Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə qoyulmuşdur. Ulu Öndər Azərbaycanın gələcəyini, müstəqilliyini düşünərək keçmiş SSRİ rəhbərliyi qarşısında təkidli tələblər irəli sürmüş, strateji əhəmiyyətli bir sıra sənaye və aqrar-sənaye, istehsal müəssisələrinin respublikada inşasına nail olmuşdur.

Həmin dövrləri yaşayan və canlı şahidi olan şəxslər bilirlər ki, həyatımızın elə bir sahəsi yox idi ki, Heydər Əliyev onunla maraqlanıb problemlərini yoluna qoymasın. Elə götürək, meliorasiya və irriqasiya sahəsini. Azərbaycanda bu sahədə işlərə XIX əsrin əvvəllərində başlanılmasına baxmayaraq, onun geniş miqyasda intensiv inkişafı 1969-1982-ci illərə təsadüf edir. Kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına meliorasiya və su təsərrüfatı sahəsini inkişaf etdirmədən məvəffəq olmağın mümkünsüzlüyünü bilən Heydər Əliyev daim bu sahəyə diqqət yetirmişdir. Şəxsən onun diqqəti sayəsində 1971-1975-ci illərdə meliorasiya işlərinə 580 milyon manatdan artıq vəsait xərclənmişdir ki, bu da 1966-1970-ci illərdəkinə nisbətən iki dəfə çox idi. Bu müddətdə 23,5 min hektar yeni suvarılan torpaqlar istifadəyə verilmiş, 156,8 min hektar suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 88 min hektar sahədə torpaqların yuyulması, 110,3 min hektar sahədə suvarma şəbəkələrinin yenidən qurulması və su təchizatının yaxşılaşdırılması, 133,2 min hektar sahədə hamarlama işlərinin aparılması təmin olunmuş, 248,6 min hektar qış otlaq sahələrində su təminatı sistemləri inşa edilmişdir.

Eyni zamanda bu illər ərzində bir sıra iri irriqasiya və meliorasiya obyektləri, o cümlədən Araz çayı üzərində həcmi 1 milyard 350 milyon kubmetr olan Araz su anbarı elektrik stansiyası ilə birlikdə, İran və Azərbaycan ərazilərində 400 min hektar sahəni suvaran Mil-Muğan hidroqovşağı, Baş Mil kanalı, Yuxarı Mil və Yeni Xan qızı kanalları, Naxçıvan MR-də 6 min hektar sahəni suvaran üçpilləli Qaraçuq və ikipilləli Arpaçay nasos stansiyaları, Naxçıvan suvarma sistemi, Abşeron suvarma sistemi, Qusar rayonunda Caqar-Cibir magistral kanalı, Şamaxı rayonunda həcmi 3,5 milyon kubmetr olan Zaqolovoçay su anbarı, Lənkərançay su qovşağı, Mərkəzi Muğan və Cənubi-Şərqi Şirvan qış otlaqlarının su təminatı sistemləri və s. obyektlər tikilib istismara verilmişdir.

Ötən əsrin 70-ci illərində Bakı şəhərində və bütövlükdə Azərbaycanda genişmiqyaslı quruculuq işləri həyata keçirilmişdir. Bakı və Sumqayıt şəhərlərində ittifaq əhəmiyyətli bir sıra sənaye obyektlərinin istifadəyə verilməsi və yeni yaşayış massivlərinin salınması Abşeron yarımadasında içməli və texniki suya tələbatı artırmışdır. Kür su kəmərlərinin birinci növbəsi artan tələbatı ödəmədiyindən yenə də su çatışmazlığı müşahidə olunurdu. Heydər Əliyev nüfuzundan istifadə edərək Kür su təchizatı sistemlərinin tikintisinin davam etdirilməsinə razılıq aldı. 1978-1987-ci illərdə Kür su kəmərlərinin 2-ci və 3-cü növbələrinin inşası nəticəsində təmizləyici qurğuların emal, magistral kəmərlərin nəql gücü artırılaraq saniyədə 9,5 kubmetrə və ya sutkada 820 min kubmetrə çatdırıldı. Bununla da yeni salınmış 8-ci km, Günəşli və Əhmədli yaşayış massivlərində, mikrorayonlarda, eləcə də sənaye müəssisələrində müşahidə olunan su qıtlığı aradan qaldırıldı. Eyni zamanda Bakı şəhərinin su təchizatında müstəsna əhəmiyyət daşıyan mərkəzi su anbarları tikilərək istifadəyə verildi, yeni supaylayıcı şəbəkələr quruldu. Ulu Öndər Heydər Əliyevin "Bakını yaşıllıqlar diyarına çevirək" çağırışı və təşəbbüsü yeni parkların, xiyabanların və yaşıllıq zolaqlarının salınması ilə nəticələndi.

Abşeron yarımadasının içməli su təchizatında mühüm əhəmiyyəti olan Ceyranbatan sutəmizləyici qurğular kompleksinin üçüncü mərhələsinin inşasında da Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. 1978-ci ildə işə salınan üçüncü növbə də daxil olmaqla Ceyranbatan sutəmizləyici qurğularının məhsuldarlığı saniyədə 7,5 kubmetrə çatdırılmışdır. Respublikanın şəhər və rayon mərkəzlərində mərkəzləşdirilmiş içməli və tullantı su sistemlərinin yaradılması da 1970-80-ci illərdə Ulu Öndərin birbaşa rəhbəliyi ilə həyata keçirilmişdir.

Ümumiyyətlə, Heydər Əliyevin bilavasitə rəhbərliyi və köməyi ilə 1969-1982-ci illərdə respublikada iri su təsərrüfatı obyektləri, o cümlədən Viləşçay su anbarı sağ sahil kanalı ilə birlikdə, Cənubi Muğan kanalının maşın qolu, Şəmkir maşın kanalı, Sərsəng su anbarı, Suqovuşan su anbarı, Arpaçay su anbarı və magistral kanallar, Sirab su anbarı, Aşağı Köndələnçay su anbarı, Yuxarı Xanbulançay su anbarı kompleksi, Şəmkir su anbarı, Əyriçay su anbarı, Coqazçay su anbarı və digər obyektlər tikilib istismara verilmişdir. 200 min hektara yaxın yeni suvarılan torpaqlar kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 400 min hektara yaxın suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 825 min hektar sahədə suvarma sistemləri yenidən qurularaq onların su təminatı artırılmış, 460 min hektar sahədə əsaslı hamarlama və 150 min hektara yaxın sahədə əsaslı yuma işləri aparılmış, texniki cəhətdən mükəmməl irriqasiya və meliorasiya sistemləri yaradılmışdır.

Ulu Öndər yeniliyin, mütərəqqi təcrübənin, milli və ümumbəşəri dəyərlərin tərəfdarı kimi mahir dövlət idarəçisi, islahatçı təfəkkürə malik böyük şəxsiyyət idi. Bütün bu yüksək şəxsi keyfiyyətlər ona Azərbaycanı keçmiş Sovet İttifaqında müttəfiq respublikalar arasında ön yerlərdən birinə çıxarmağa imkan vermişdir. Qısa zaman kəsimində görülmüş nəhəng işlər, xarakterindəki bütövlük, qətiyyət, mətin iradə, qeyri-adi zəka, tükənməz enerji, vətənpərvərlik, millət sevgisi xalqın gözündə Heydər Əliyevin xilaskar obrazını yaratmışdır. Ulu Öndər Azərbaycanın gələcəkdə müsəqillik qazanacağını irəlicədən dərk etdiyindən respublikanın iqtisadi, sosial, mədəni potensialını müdrikliklə səfərbər edir, müstəqil Azərbaycanın inkişafı üçün əlverişli zəmin hazırlayırdı. Onun milli kadr hazırlığına, gənclər siyasətinə xüsusi diqqət yetirməsi milli təəssübkeşlik, xalq qarşısında misilsiz xidmət nümunəsi idi.

Təsadüfi deyil ki, "olum, ya ölüm" dilemması qarşısında qalan xalq 1993-cü ilin iyununda qəti qərar verərək böyük dövlət xadimi Heydər Əliyevin Bakıya dəvət olunmasını, hakimiyyətin ona verilməsini tələb etmişdir. Xalq öz tələbində israrlı idi, çünki Heydər Əliyevi tanıyırdı, heç bir qüvvə onu bu qərarından döndərə bilməzdi. Xalq müqəddəs Qurtuluş mücadiləsinin qüdrətli sərkərdəsinin xilaskarlıq missiyasına öz varlığı qədər inanırdı.

1993-cü il iyunun 9-da təkidli tələblərdən sonra Heydər Əliyev Bakıya gəldi. Xalq dərindən nəfəs aldı, rahatlıq tapdı: ağıl və zəka, Heydər Əliyev dühası düşmən qarşısında ən etibarlı sipər idi. Yenidən hakimiyyətə qayıdan Heydər Əliyev böyük dövlətçilik təfəkkürü ilə Azərbaycanda cövlan edən mürəkkəb prosesləri təhlil edərək, məmləkətin tarixi taleyinin xilası yolunda siyasi iradə nümayiş etdirdi, qəti addımlar atdı.

Müstəqilliyin ilk illərində Heydər Əliyev Azərbaycanda siyasi sabitliyin bərpasına nail olmaqla yanaşı, ölkənin iqtisadi müstəqilliyinin əsaslarını yaratmaq imkanlarını nəzərdən keçirdi. Bunun üçün ilk növbədə Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarının ölkənin gələcək inkişafına yönəldilməsini nəzərdə tutan neft strategiyası işlənib hazırlandı. Ümummilli Liderin müəllifi olduğu yeni neft strategiyası müstəqil Azərbaycanın dinamik inkişafı üçün möhkəm təməllər yaratdı.

Ulu Öndər dahi və nüfuzlu bir şəxsiyyət olaraq özünün parlaq zəkası ilə Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb ona həm regionda, həm də dünyada layiqli yer qazandırmışdır. Ümummilli Lider respublikamızı üzləşdiyi bir çox faciədən qurtarmış, müdrik və uzaqgörən addımları ilə onu davamlı, sabit inkişaf yoluna çıxarmışdı. Heydər Əliyevin irəli sürdüyü dövlətçilik konsepsiyası mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini birləşdirən yeni inkişaf modeli kimi özünü doğrultmuşdur.

Ümummilli Lider özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmiş, bu sahədə mövcud problemlərin həlli yollarını elmi-nəzəri və əməli əsasda göstərmiş, azad bazar iqtisadiyyatına optimal keçid modelini irəli sürmüş, onun həyata keçirilməsinə çalışmışdır. Demokratik inkişaf yolu ilə irəliləyən Azərbaycanda da bazar iqtisadiyyatı prinsipləri - xüsusi mülkiyyətçilik, azad sahibkarlıq fəaliyyəti, özəlləşdirmə, qeyri-neft sektorunun, sənayenin inkişafı və sosial infrastrukturun yeniləşdirilməsi prioritet seçilmişdir. İqtisadi sahədə həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümumi daxili məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanmışdır.

Müstəqilliyin ilk illərində Ulu Öndərin göstərişlərini əsas tutaraq respublikaya qoyulan xarici investisiyalar ilk növbədə meliorasiya və su təsərrüfatı sahəsinə yönəldilmişdir. Xarici investisiyaların səmərəliyini təmin etmək məqsədilə tikintisi yarımçıq qalmış 150 obyektdən ölkə üçün mühüm əhəmiyyət kəsb edən 11 obyekt seçilmiş və onlardan iqtisadiyyatımız üçün ən vacib olan üç obyektin - Baş Mil-Muğan kollektorunun tikintisinin, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının və Naxçıvan Muxtar Respublikasında Vayxır su anbarının tikintisinin birinci növbədə maliyyələşdirilməsi qərara alınmışdır.

Həmin illər Azərbaycanın maliyyə vəziyyəti içməli su təchizatı sektorunda da böyük layihələri həyata keçirməyə imkan vermirdi. Bunu nəzərə alan Heydər Əliyev əhalinin su təminatının yaxşılaşdırılması üçün beynəlxalq maliyyə təşkilatlarından kredit cəlb etmək təşəbbüsünü irəli sürdü. 1995-ci ildə Ceyranbatan və Kür sutəmizləyici qurğularının yenidən qurulması üçün Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankından dövlət zəmanətli kreditlərin cəlbi üçün danışıqlara başlanıldı. O zaman beynəlxalq maliyyə qurumları yenicə müstəqillik qazanmış postsovet ölkələrinə irihəcmli güzəştli kredit ayırmağa ehtiyatla yanaşırdı. Amma Heydər Əliyevin nüfuzu sayəsində bu məsələ də müsbət həllini tapdı və "Böyük Bakının su təchizatı sisteminin yenidən qurulması" layihəsinə güzəştli şərtlərlə 88,7 milyon dollar kredit ayrıldı. Bu vəsait hesabına Kür və Ceyranbatan sutəmizləyici qurğularında, 250-dən artıq məhəllədaxili nasos stansiyasında əsaslı yenidənqurma işləri aparıldı, su təsərrüfatının maddi-texniki bazası gücləndirildi. Həyata keçirilmiş tədbirlər nəticəsində suyun keyfiyyət göstəricilərinin standartlara uyğunlaşdırılması paytaxt sakinlərinin təmiz içməli su ilə təminatına imkan yaratdı.

Bundan əlavə, Heydər Əliyevə islam dünyasının böyük hörmətinin və ehtiramının rəmzi olaraq İslam İnkişaf Bankının rəhbərliyi Baş Mil-Muğan kollektorunun tikintisinin davam etdirilməsinə güzəştli kredit və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması sxeminin hazırlanmasına əvəzsiz olaraq vəsait ayırdı.

Əlavə olaraq xarici maliyyə qurumlarının krediti və respublika büdcəsindən ayrılan vəsait hesabına 2000-2006-cı illərdə 81,2 km uzunluğunda Baş Mil-Muğan kollektoru yüksək keyfiyyətlə tikilərək istifadəyə verildi. Baş Mil-Muğan kollektorunun istismara verilməsi ilə 500 min hektar suvarılan torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına və onun xidmət etdiyi ərazidə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına imkan yarandı.

Samur-Abşeron suvarma sistemi ölkəmizin şimal bölgəsinin, eləcə də Bakı və Sumqayıt şəhərlərinin, bütövlükdə Abşeron yarımadasının yaşayış məntəqələrini, kənd təsərrüfatı və sənaye müəssisələrini içməli, suvarma və texniki su ilə təmin edən irimiqyaslı kompleks su təsərrüfatı obyektləri olduğunu müəyyən edən Ulu Öndər Samur çayı üzərində baş sugötürücü qurğunun və Samur-Abşeron kanalının Vəlvələçaya qədər olan hissəsinin yenidən qurulması, Xanarx kanalının, Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan kanallarının və Taxtakörpü su anbarının tikintisinin başa çatdırılması ideyasını irəli sürdü. Hazırda bu sistemin istifadəyə verilməsi ilə respublikanın şimal bölgəsinin 150 min hektara yaxın torpaq sahəsinin suvarma suyu ilə təminatı yaxşılaşdırılmış və 30 min hektar yeni suvarılan torpaqlar su ilə təmin olunmuş, Bakı, Sumqayıt şəhərlərinin, habelə Abşeron yarımadasının içməli, suvarma və texniki suya olan tələbatının 60 faizi təmin edilmişdir.

1990-cı illərin ikinci yarısında neft gəlirlərinin artımını nəzərə alaraq, böyük uzaqgörənlik nümayiş etdirən Heydər Əliyev Bakının dayanıqlı və keyfiyyətli su təchizatı üçün Oğuz-Qəbələ zonasının yeraltı sularından istifadə ilə bağlı təşəbbüslə çıxış etdi. 2002-ci il dekabrın 19-da keçirilən müşavirədə Ulu Öndər paytaxta yüksək keyfiyyətli bulaq suyunun gətirilməsi vaxtının çatdığını bildirdi və bu məqsədlə Oğuz-Qəbələ zonasının yeraltı sularının öyrənilməsi barədə tapşırıq verdi. Ulu Öndərin irəli sürdüyü bu layihə Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildi. 2007-ci ilin mart ayında dövlət başçısının iştirakı ilə təməli qoyulmuş Oğuz-Qəbələ-Bakı su kəməri 28 dekabr 2010-cu ildə istismara verildi. Dövlət Neft Fondunun vəsaiti hesabına maliyyələşdirilən Oğuz-Qəbələ-Bakı su kəmərinin istifadəyə verilməsi ilə Bakı şəhərinin içməli su təchizatında sabitlik təmin olundu.

Ulu Öndərin "Bakıya bol-bol su gətirəcəyik" ideyasına sadiq qalan Prezident İlham Əliyev paytaxtın dayanıqlı içməli su təminatı üçün yeni təşəbbüslərlə çıxış etdi. 2011-ci ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə Ceyranbatan gölünün yaxınlığında ultrasüzgəc texnologiyasına əsaslanan yeni kompleksin təməli qoyuldu. Ən son texnologiya əsasında tikilən kompleks 2015-ci ilin oktyabrında istifadəyə verildi. Məhsuldarlığı saniyədə 6 kubmetr olan qurğu bu gün Abşeron yarımadasında yaşayan 1 milyona yaxın insanın içməli su təminatına öz töhfəsini verir.

Eyni zamanda Ulu Öndər Heydər Əliyevin 1970-1980-ci illərdə başladığı işlərin məntiqi davamı olaraq, Prezidentin rəhbərliyi ilə Bakı şəhəri və Abşeron yarımadası ilə yanaşı, ölkənin regionlarında da mühüm su və kanalizasiya layihələri icra olunur. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq 33 şəhər və rayon mərkəzində içməli və tullantı su, 13-də içməli su şəbəkələrinin, 20-də isə tullantı sutəmizləyici qurğularının tikintisi, əhalisinin sayı 1 milyon 500 min nəfər olan 1000-dən çox kəndin içməli su təchizatının yaxşılaşdırılması ilə bağlı işlər artıq başa çatmışdır.

"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim vətənimdir, mənim torpağımdır" söyləyən Ulu Öndər bütün dövrlərdə doğma xalqına sədaqətlə xidmət etmişdir. Azərbaycan xalqı dövlətimizin əldə etdiyi bütün uğurlara görə Ulu Öndər Heydər Əliyevə minnətdardır. Xalqımız Ümummilli Liderə həm də ona görə minnətdardır ki, İlham Əliyev kimi lideri bizə bəxş etmişdir. Çünki məhz İlham Əliyevin sayəsində bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Xüsusilə 44 günlük Vətən müharibəsindəki tarixi zəfərimiz Azərbaycanı bütün dünyaya qalib ölkə, xalqımızı isə qəhrəman xalq kimi tanıtdı. Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaratmışdır.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin kollektivi də Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd edilməsinə böyük coşqu ilə hazırlaşır. Ulu Öndərin xatirəsinə ehtiram əlaməti olaraq, Prezidentin rəhbərliyi altında iqtisadiyyatımızın inkişafında mühüm əhəmiyyət kəsb edən meliorasiya və su təsərrüfatı sahəsində müasir idarəetmə sisteminin təşkili, innovativ metodların, yeni suvarma texnologiyalarının və texnikanın tətbiqi, coğrafi elektron informasiya sisteminin yaradılması, işğaldan azad olunan ərazilərdə Xaçınçay, Köndələnçay su anbarının və magistral kanalının təmir-bərpası, Tərtərçay Sol Sahil kanalının yenidənqurulması və digər bu kimi işlər uğurla davam edir. Eyni zamanda Ağdam, Füzuli və Cəbrayıl rayonlarının ərazilərində meliorasiya və su təsərrüfatı komplekslərinin bərpası, eləcə də Qız qalası su anbarından su götürən magistral kanalın tikintisinin, sututumu 90,8 milyon kubmetr olan Həkəriçay və Qubadlı rayonu ərazisində yerləşən Bərgüşadçay su anbarlarının texniki-iqtisadi əsaslandırmasının və layihə sənədlərinin hazırlanması, Qubadlı və Zəngilan rayonlarının 12 min hektara yaxın əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi üçün Zabuxçay su anbarının və magistral boru kəmərlərinin layihələndirilməsi və tikintisi işlərinin aparılmasına başlanılmışdır. Bunlardan əlavə, cari il Zəngilan, Qubadlı, Kəlbəcər və Laçın rayonları üzrə meliorasiya və su təsərrüfatı komplekslərinin bərpası ilə əlaqədar texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanması işlərinə start veriləcək. Amma artıq Şuşa və Laçın şəhərləri, Kəlbəcər, Qubadlı, Zəngilan, Ağdam, Cəbrayıl və Füzuli rayonlarında içməli su təchizatının bərpası məqsədilə təxirəsalınmaz işlər görülmüş, bəzi ərazilərdə yeni layihələrin icrasına başlanılmışdır.

Şuşa şəhərinin içməli su təchizatı sistemlərinin yenidən qurulması layihəsinə də başlanılmışdır. Artıq bu layihə üzrə Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,3 kilometrlik hissəsi polad borularla yenilənmiş, şəhərin perspektiv inkişafı nəzərə alınaraq alternativ mənbə yaradılmışdır. Layihə çərçivəsində həmçinin Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr olan sutoplayıcı bənd, nasos stansiyası, 2,6 km uzunluğunda yeni kəmər inşa edilmiş və 2022-ci ilin dekabrında mənbədən şəhərə suyun verilməsi təmin olunmuşdur. Hazırda şəhərin relyef baxımından hündür nöqtələrində mərkəzi su anbarlarının tikintisi davam edir. Növbəti mərhələdə şəhərdaxili su, kanalizasiya və yağış suları şəbəkələrinin, içməli və tullantı sutəmizləyici qurğuların, nasos stansiyasının inşası nəzərdə tutulur.

Laçın şəhərinin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrası da uğurla reallaşır. Layihə perspektiv inkişaf nəzərə alınmaqla 18 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinə hesablanmışdır. Şəhəri dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə Sus kəndi ərazisində 6 subartezian quyusu bərpa edilir, quyu zonasında sutoplayıcı anbar və nasos stansiyası, zərərsizləşdirici qurğu inşa olunur. Su mənbəyindən 426-114 mm diametrli polad borularla 10 kilometr uzunluğunda yüksəktəzyiqli magistral su kəmərinin, nasos stansiyasının, ümumi tutumu 4 min kubmetr olan 9 anbarın tikintisi və bərpası işləri davam edir. İnşası planlaşdırılan 58 kilometr içməli su və 49 kilometr tullantı su şəbəkəsinin böyük hissəsi artıq inşa olunmuşdur.

Ağdam, Füzuli və Cəbrayıl şəhərlərinin də baş planlarına uyğun olaraq su mənbələri müəyyən edilərək anbarların, magistral su kəmərlərinin şəhərdaxili içməli və tullantı su şəbəkələrinin, təmizləyici qurğuların layihələri hazırlanmışdır. Suqovuşan qəsəbəsinin və Talış kəndinin dayanıqlı su təminatı məqsədilə subartezian quyuları bərpa edilmiş, quyu zonasından 3 km uzunluğunda magistral su xətti çəkilmiş, paylayıcı şəbəkələr yenidən qurulmuşdur.

Fəxarət hissi ilə qeyd etməliyik ki, meliorasiya və su təsərrüfatı sahəsində qazandığımız hər bir uğurun əsasında məhz Ulu Öndərin ideyaları, vaxtilə müəyyən etdiyi strateji təməllər dayanır. Bu böyük dövlət xadiminin müəyyənləşdirdiyi strateji inkişaf kursu, Heydər Əliyev siyasəti, Heydər Əliyev fəlsəfəsi, Heydər Əliyev ideologiyası bu gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən böyük əzm və uğurla davam etdirilir. Heydər Əliyev kimi siyasət və idarəçilik korifeyindən sonra ölkənin idarə edilməsi nə qədər çətin görünsə də, Prezident İlham Əliyev bu işin öhdəsindən layiqincə gəlir. Dövlətimizin başçısı öz fəaliyyəti ilə artıq sübut etmişdir ki, Azərbaycan xalqını xoşbəxt gələcəyə aparan liderdir.



**Zaur MİKAYILOV,**
***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri***



# Heydər Əliyev İli 2023



2023-cü il Azərbaycanın tarixində mühüm hadisələrlə, inkişaf göstəriciləri ilə əlamətdardır. Cəmi bir neçə gün əvvəl Laçın yolunun girişində Ermənistanla sərhəddə Azərbaycanın nəzarət-buraxılış məntəqəsi yaratması, daha sonra Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiya şirkətləri ilə SOCAR arasında əməkdaşlığın təşviqi ilə bağlı anlaşma memorandumunun imzalanması göstərdi ki, cənab Prezident İlham Əliyev hər bir ümummilli məsələdə dövlətimizin maraq və mənafelərini qətiyyətlə təmin edir.

## Mükəmməl idarəçilik sisteminin banisi

Əlbəttə, bütün bu uğurlarımız barədə qürurla bəhs etdikcə həm də cəmi bir neçə gündən sonra anadan olmasının 100 ili tamam olan Ulu Öndər Heydər Əliyevi böyük ehtiramla xatırlayır və yad edirik. Çünki Heydər Əliyevin yaratdığı möhkəm və etibarlı təməllər üzərində ucalan Azərbaycan indi tarixinin ən qüdrətli dövrünü yaşayır. Bu baxımdan 2023-cü ilin respublikamızda "Heydər Əliyev İli" elan edilməsi də Ulu Öndərə və onun dövlətimiz qarşısındakı tarixi xidmətlərinə olan ümummilli ehtiramın ifadəsidir.

### Azərbaycanı qabaqcıllar sırasına çıxaran siyasət

34 il Azərbaycana rəhbərlik etmiş Ulu Öndər Heydər Əliyev istər sovet, istər müstəqillik dövründəki fəaliyyəti ilə respublikamızın yüksəlişini, qüdrətlənməsini, xalqımızın rifahını təmin edib. Böyük şəxsiyyət özünün uzaqgörən və parlaq siyasi zəkası, müdrikliyi sayəsində yeni Azərbaycanı qurub, onun bu günkü iqtisadi və siyasi inkişafının memarı olub, ölkəmizi işıqlı gələcəyə aparan yolları müəyyənləşdirib.

Heydər Əliyev 1969-cu ilin iyul ayında Azərbaycan KP MK-nın birinci katibi kimi fəaliyyətə başladığı ilk günlərdən respublikada həyatın bütün sahələrində canlanma hiss olundu. Ulu Öndər respublikamızda iqtisadi geriliyi və bunu yaradan səbəbləri düzgün və obyektiv şəkildə müəyyənləşdirməklə mövcud problemlərin, iqtisadiyyatdakı çətinliklərin qısa zamanda aradan qaldırılması üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərdi. Fitri istedadı, yüksək təşkilatçılıq və idarəçilik məharəti ilə Azərbaycanı cəmi bir neçə ilə dinamik inkişaf yoluna çıxarmağa müvəffəq oldu.

Yaşlı nəslin nümayəndələri yəqin ki, 1969-cu ilin avqust plenumunu xatırlayırlar. Həmin plenumda Ulu Öndər Heydər Əliyevin ölkədəki vəziyyəti əhatəli şəkildə təhlildən keçirərək mövcud vəziyyətlə bağlı tənqidi çıxış etməsi o dövrdə respublikamız üçün görünməmiş hadisə idi. Buna qədər ölkəyə rəhbərlik edənlərin heç biri vəziyyəti bu cür obyektiv dəyərləndirməmiş, neqativ halları bu şəkildə və cəsarətlə tənqid etməmişdi. Əmək fəaliyyətimin ilk dövrlərinə təsadüf edən rəsmi dövlət tədbirlərinin o vaxt respublikamızın ictimai və sosial-iqtisadi həyatında necə əks-səda doğurduğunu yaxşı xatırlayıram. Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi ölkədəki bütün neqativ hallar və çatışmazlıqlar barədə qənaətlərini qətiyyətlə, cəsarətlə, bütün təfərrüatları ilə plenumun iştirakçılarının diqqətinə çatdırdı. Şübhəsiz, bu qətiyyətli mövqe dövləti, xalqını daha yaxşı vəziyyətdə görmək istəyən, dövlətin sükanı arxasına da elə bu məramla keçən rəhbərin acınacaqlı vəziyyətlə barışmazlığının bariz ifadəsi idi.

Bu mənada avqust plenumu həmin vaxt respublikanın sosial-iqtisadi inkişafı istiqamətində çox böyük və nəhəng işlər görmək, yeni, çox səmərəli islahatlar həyata keçirmək məqsədi daşıyan əlamətdar bir hadisəyə çevrildi. Bundan dərhal sonra respublikanın ictimai-siyasi həyatında canlanma hiss olunmağa başladı. Ona görə yəqin hər kəs bu fikirlə razılaşar ki, sovet illərində Azərbaycanda sosial-iqtisadi inkişaf konsepsiyasının yaranmasının başlanğıcını 1969-cu il avqustun 5-i tarixindən götürmək lazımdır.

Görülən məqsədyönlü tədbirlər nəticəsində çox qısa bir zaman kəsiyində Azərbaycan aqrar ölkədən gündən-günə inkişaf edən sənaye ölkəsinə çevrildi. Belə ki, 1980-ci ildə sənaye məhsulu istehsalının həcmi 1970-ci ilə nisbətən 2,9 dəfəyə qədər artdı. Maşınqayırma sənayesində istehsalın həcmi 5,3 dəfə, kimya və neft-kimya sənayesində 3 dəfədən çox, yeyinti sənayesində isə 4 dəfədən çox yüksəlmişdi. Sənaye ilə yanaşı, ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən kənd təsərrüfatı da inkişaf etdirilirdi. Əkinçiliyin ayrı-ayrı sahələri - pambıqçılıq, taxılçılıq, üzümçülük, tütünçülük, bağçılıq, bostan və tərəvəz, eləcə də heyvandarlıq məhsullarının istehsalı 1982-ci ildə 1969-cu illə müqayisədə 2,5 dəfədən çox artmışdı.

### İdarəçilikdəki intizam inkişafın əsas təməllərindən birinə çevrildi

"Qoy ədalət zəfər çalsın!" devizi ilə ölkəyə rəhbərliyə başlayan Heydər Əliyev sovet dövlətinin konstitusiyası çərçivəsində verilmiş imkanlardan xalqın mənafeyi üçün tam şəkildə istifadə etdi, cəmiyyətdə inkişafa maneçilik törədən problemlərə, əngəllərə son qoydu. Bunun üçün isə Ulu Öndər öncə idarəetmədən başladı. Qeyd edim ki, böyük şəxsiyyət avqust plenumunda idarəçilikdəki mənfi meyilləri də kəskin tənqid etmiş, kadr siyasəti ilə bağlı prioritetləri açıqlayaraq demişdi: "Biz ayrı-ayrı vəzifəli şəxslərin davranışında özünü büruzə verən nalayiq hallara, pozğunluq təzahürlərinə göz yuma bilmərik. Mənəviyyat, əxlaq bütün işimizə nüfuz etməlidir. Kadrları açıq-aşkar, kütlələrin gözü qabağında seçmək, onlar haqqında kollektivin, adamların, iş yoldaşlarının rəyini nəzərə almaq lazımdır. Yalnız belə olduqda kadrların seçilməsi və yerləşdirilməsindəki bir çox səhvlərin qarşısını almaq, həmin sahədə işimizin səviyyəsini xeyli yüksəltmək olar". Ulu Öndər kəskin şəkildə bəyan edirdi ki, respublikada idarəçilik sistemində regionçuluq və yerlibazlıq meyilləri özünü göstərmiş, dövlət işinə böyük xeyir gətirə bilən, daha böyük səmərə verə bilən təşkilatçılıq bacarığı, işgüzarlıq keyfiyyətləri diqqətdən kənarda qalmışdır.

Heydər Əliyev qarşıya qoyduğu məqsədlərə çatmaq, müəyyən etdiyi vəzifələrin layiqincə yerinə yetirilməsi üçün ilk növbədə idarəçilikdən başlamışdı. Respublikamızın inkişafının təmin edilməsi üçün geniş islahatlar həyata keçirən Ulu Öndər ilk növbədə diqqəti idarəçilikdəki mənəvi-psixoloji mühitin sağlamlaşdırılmasına yönəltmişdi. Məhz idarəçilikdə təmin olunan nizam-intizamın, o cümlədən qanunçuluğun möhkəmləndirilməsinin nəticəsi olaraq bütün sahələrdə irəliyə doğru dönüşün təməlləri yaradıldı. İdarəetmədə intizamın, haqq-ədalətin təminatına nail olan və bunu məmur aparatının əsas amalına çevirən Ulu Öndər bu yolla hakimiyyət orqanları ilə vətəndaşlar arasında möhkəm mənəvi və hüquqi bağlantını, qarşılıqlı etimadı təmin etdi.

Ulu Öndərin qarşıya qoyduğu məqsədlərə uyğun olaraq rüşvətxorluğun və korrupsiyanın qarşısının alınması üçün sərt və qətiyyətli islahatlar həyata keçirildi. Təbii ki, bu addımlar həm ümumi inkişafın stimullaşdırılmasına, həm də cəmiyyətin mənəvi baxımdan sağlamlaşdırılmasına öz müsbət təsirini göstərdi. Bu mənada o illərdə qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinin əsas səbəblərindən biri Heydər Əliyevin idarəçilikdə yaratdığı nizam-intizam və şəffaflıq, bütün neqativ təzahürlərə son qoyması idi.

### Azərbaycanlı kadrlar irəli çəkildi

Lakin idarəetmədəki problemlər yalnız xoşagəlməz halların, bürokratik əngəllərin baş alıb getməsindən ibarət deyildi. Problem həm də onda idi ki, idarəetmədə azərbaycanlıların say göstəricisi olduqca az idi və bu, sahədə neqativ vəziyyətin əsas səbəblərindən biri kimi özünü göstərirdi. İdarəçilikdə azərbaycanlıların təmsil olunmasına ciddi maneələrin hökm sürməsi, onların daha çox aşağı vəzifələrdə yerləşdirilməsi ilk növbədə hakimiyyətlə xalqın birliyinə, milli vəhdətə ciddi əngəl idi. Ona görə Heydər Əliyev idarəetmədə azərbaycanlıların sayının az olmasına olduqca mənfi yanaşdı, xalqımızın çoxəsrlik milli-mənəvi dəyərlərini öz həmvətənlərinin şəxsində üzə çıxarmaq siyasəti ilə işə başladı. Bu baxımdan Heydər Əliyev diqqətini həm də rəhbərliklə xalqın vəhdətinə, onlar arasında milli həmrəyliyin təmin olunmasına yönəltmişdi. Məsələn, Dövlət Təhlükəsizlik Komitəsi sistemində və digər hüquq-mühafizə orqanlarında o illərdə nə qədər azərbaycanlı işə qəbul olunmuşdu. Partiya orqanlarında və ideoloji iş sahəsində nə qədər azərbaycanlı kadrlar vəzifədə irəli çəkilmişdilər. Mərkəzin təzyiqlərinə, yaratdığı baryerlərə baxmayaraq Heydər Əliyev bu sahələrdə olduqca əhatəli bir milliləşdirmə siyasəti həyata keçirmişdi.

Ulu Öndərin bacarıqlı yerli kadrları idarəetməyə cəlb etməsi respublikanın inkişafı istiqamətində başlanan islahatlara böyük dəstək oldu. Belə bir fəaliyyət nəticəsində Azərbaycanda idarəçilikdə - dövlət orqanları arasında işlək əlaqə zəncirləri yarandı. Bu mövzuda söz açmaq mənim üçün xüsusilə qürurvericidir. Çünki siyasi və idarəçilik fəaliyyətimdə ilk addımlarımı məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlamasından sonra atdım. Məhz Heydər Əliyevin gəncləri idarəçilikdə önə çəkmək təşəbbüslərinin nəticəsi kimi, 1971-ci ilin fevral ayında Lənkəran rayonunda komsomolun ikinci katibi vəzifəsinə seçildim. Bundan bir il sonra isə Lənkəran komsomolunun birinci katibliyinə namizədliyim irəli sürüldü. 1972-ci il iyul ayının 4-də məni qəbul edən Ulu Öndər Heydər Əliyevin verdiyi tövsiyələr, nəsihətlər bütün həyatım boyu fəaliyyətimin əsas istinadgahı oldu. Ulu Öndər komsomola birinci katib seçilən gəncləri qəbul edirdi, onlara istiqamət verirdi. Bu görüş məndə həyat fəaliyyətimin istiqamətini birdəfəlik müəyyən edən təəssürat yaratdı. O görüşdə mənə verilən tövsiyələr Ümummilli Lider Heydər Əliyevin siyasi məktəbinin birinci dərsi idi. Bundan sonra Lənkəran Şəhər İcraiyyə Sovetinin sədri təyin olunanda bir daha Ulu Öndər məni qəbul edərək tapşırıq və tövsiyələrini verdi.

Heydər Əliyev kadrların pillə-pillə irəli çəkilməsinə, onların işlədikləri vəziflərdə təcrübə toplamalarına, Ali Partiya Məktəbində təhsil almalarına, ordu sıralarında xidmət etmələrinə xüsusi diqqət yetirirdi.

Heydər Əliyevin kadr siyasətində həm də multikultural baxışlar vardı. Respublikamızda yaşayan bütün azsaylı xalqların nümayəndələri vəzifə pillələrində irəli çəkilirdilər. O cümlədən gender bərabərliyi qorunurdu.

Kadr siyasəti ilə bağlı həyata keçirilən tədbirlərdən biri kimi xalqımızın dahi oğlu inkişafda vacib amil olan təhsil sisteminin yaxşılaşdırılmasına, savadlı, geniş dünya görünüşünə malik ziyalıların yetişməsinə böyük diqqət yetirirdi. Ölkənin dinamik inkişafı üçün ilk növbədə yüksəkixtisaslı kadrlara ehtiyac olduğunu yaxşı bilən Heydər Əliyev azərbaycanlı gənclərin Moskvada və SSRİ-nin başqa şəhərlərində olan qabaqcıl elm və təhsil ocaqlarında təhsil alması üçün bütün vasitələrdən istifadə edirdi. Bu baxımdan 1970-1980-ci illərdə onun təşəbbüsü ilə respublikadan kənarda, SSRİ-nin 50-dən artıq şəhərinin, 135 mülki, 105 ali hərbi məktəbində 250-dən çox nadir ixtisas üzrə 15 mindən çox mütəxəssis hazırlanmışdı. Heydər Əliyevin atdığı ən müdrik və cəsarətli addımlardan biri də Cəmşid Naxçıvanskinin adı verilən hərbi təyinatlı məktəbin fəaliyyətə başlaması olmuşdu.

Görülən işlərin nəticəsi idi ki, artıq 70-ci illərdə ali təhsilli, ixtisaslı kadrların sayı respublikada iki dəfə artmışdı. O dövrdə yüksəkixtisaslı kadrların böyük bir hissəsi ali təhsilli kadrlardan ibarət idi. Məsələn, 1978-ci ildə onlar ümumi sayın 46 faizini təşkil edirdilər.

### İlham Əliyev nümunəsi

Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtdıqdan sonra da öz tarixi missiyasını fədakarcasına həyata keçirdi. 1969-1982-ci illərdə Azərbaycanı SSRİ miqyasında inkişaf səviyyəsinə görə 14-cü yerdən liderlər cərgəsinə çıxaran Heydər Əliyev bu dəfə mürəkkəb bir geosiyasi reallıqda hələ kövrək olan müstəqilliyimizi qorudu, vətəndaş qarşıdurmasına imkan vermədi, separatizmin kökünü kəsdi, dövlətçiliyimizi yaşatdı. Məhz Heydər Əliyev dühası ilə bu günkü qüdrətli Azərbaycanın möhkəm bünövrəsi yaradıldı.

Mənim üçün olduqca qürurvericidir ki, bu dövrdə də Heydər Əliyevin rəhbərliyi altında çalışmışam. Həm Nazirlər Kabinetində, həm də qanun yaradıcılığı sahəsində çalışdığım illərdə Ulu Öndərimizin nə qədər vətənpərvər, bütün varlığı ilə dövlətini və xalqını sevən şəxsiyyət olmasının bir daha şahidinə çevrildim.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il dövlətçiliyimizin əsaslarının formalaşdırılması və möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğunun həyata keçirilməsi, siyasi, iqtisadi və aqrar islahatların aparılması, respublikamızın beynəlxalq birliyin tamhüquqlu üzvünə çevrilməsi, o cümlədən təkmil dövlət idarəetmə aparatının yaradılması dövrü kimi yadda qaldı.

Bütün bunlarla yanaşı, xalqımızın dahi övladı respublikamızın gələcək inkişaf istiqamətlərini müəyyən etdi və ən əsası bu inkişafı təmin edə biləcək layiqli siyasi varis yetişdirdi. Ötən 20 ilə yaxın dövr ərzində Azərbaycanın keçdiyi dinamik inkişaf yolu göstərir ki, Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu, ideyalarını layiqincə, qətiyyətlə davam etdirir. Başqa cür ifadə etsək, əsası Heydər Əliyev tərəfindən qoyulan inkişaf siyasəti Azərbaycan cəmiyyətinin bütün sferalarında yeni dövrün tələblərinə uyğun olmaqla uğurla davam etdirilir. Bu dövrdə iqtisadiyyatımızın 3 dəfə artması, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin inşasının başa çatdırılması, Bakı-Tbilisi-Qars və "Cənub qaz dəhlizi" kimi qlobal əhəmiyyət daşıyan layihələrin tam icra olunması, respublikamızın qlobal enerji müzakirələrində aparıcı mövqe tutması, həmçinin kosmik kluba daxil olması, əhalinin sosial rifahında baş verən yüksək keyfiyyət dəyişiklikləri Azərbaycanın yüksəlişinin göstəriciləridir.

Milli inkişafda varisliyi təmin edən Prezdent İlham Əliyevin həyata keçirdiyi siyasət həm də novatorluğu və dinamizmi ilə fərqlənir. Qeyd olunanlar Prezident İlham Əliyevin dövlət idarəçiliyi xəttində və kadr siyasətində özünü göstərir. Bu sahədə vaxtilə Ulu Öndərin yaratdığı ənənələr layiqincə davam etdirilir. Bu baxımdan hazırda ölkəmizdə həyata keçirilən mütərəqqi gənclər siyasəti və təhsil siyasəti müasir idarəetmə çağırışlarının tələblərinə cavab verə bilən kadrların yetişdirilməsini təmin edir. Bu gün gənclərimiz dövlət xətti ilə dünyanın nüfuzlu ali təhsil ocaqlarında təhsil almaq imkanına malikdirlər.

20 il böyük zaman kəsiyi deyil. Lakin keçdiyimiz yola nəzər salanda, prosesləri analiz edəndə görürük ki, bu dövrdə qazanılan uğurlar bir neçə onilliyə bərabərdir. Prezident İlham Əliyev ölkəmizin inkişafına nail olmaqla yanaşı, həm də beynəlxalq münasibətlər şəraitində istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarını təmin edir. Prezident İlham Əliyev beynəlxalq miqyasda da əsl lider olaraq ehtiramla qarşılanır.

### Tarixin ən qüdrətli Azərbaycanı

Bu dövrün ən böyük tarixi uğuru isə 2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsidir. 44 günlük müharibədə qazanılan zəfərlə Prezident İlham Əliyev Ulu Öndərin 2003-cü ildə xalqımıza müraciəti zamanı etdiyi vəsiyyəti yerinə yetirdi. Artıq ərazi bütövlüyümüz bərpa edilib, keçmiş məcburi köçkünlər tədricən doğma yurdlarına geri dönürlər. Həmçinin Qarabağ və Şərqi Zəngəzurda onların məşğulluğu, sosial rifahı üçün geniş imkanlar yaradılır. Bu amillərin hər biri Azərbaycanda həyata keçirilən sosial siyasətin ən mükəmməl nümunəsidir.

Zəngilanın Ağalı və Tərtərin Talış kəndlərində həyatın yenidən başlanması göstərir ki, möhtərəm İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımızı əzmlə və qətiyyətlə bərpa edir. Bununla yanaşı, cənab İlham Əliyev müharibədən sonra yaranmış yeni reallıqlar müstəvisində də Azərbaycanın maraqlarını qətiyyətlə qoruyur. Bir neçə gün əvvəl Laçın yolunun girişində nəzarət-buraxılış məntəqəsinin yaradılması da göstərir ki, Azərbaycan dövləti özünün milli mənafelərini təmin etməyi bacarır.

Bütün bu sadalananlar həm də Azərbaycan dövlətinin öz tarixinin ən qüdrətli mərhələsini yaşadığını təsdiq edən faktorlardır.

Bu gün Azərbaycan bütün parametrlər üzrə nəinki regionun, ümumilikdə götürdükdə böyük bir arealın inkişaf nümunəsidir. Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi olan Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin hər bir nailiyyəti həm də idarəçilikdəki nizam-intizamın, ədalətin, şəffaflığın göstəricisidir. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dövlət idarəçilik xətti Prezident İlham Əliyev tərəfindən daha da təkmilləşdirilməklə, dövrün çağırış və tələbləri nəzərə alınmaqla, ən müasir yanaşma metodları ilə davam etdirilir. Xüsusilə qeyd edilməlidir ki, dövlətin idarə edilməsində, dövlətə rəhbərlikdə peşəkarlığın, səmərəliliyin, səriştəliliyin əhəmiyyətini isə xalqımız Prezident İlham Əliyevin çoxcəhətli və səmərəli fəaliyyətində daha aydın görür və bununla fəxr edir.

**Hadi RƏCƏBLİ,**
***siyasi elmlər doktoru, professor***

Yeni nəşrlər

## Heydər Əliyev irsinə dəyərli töhfə

Xalqımızın böyük oğlu, dünyaşöhrətli siyasətçi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyəti böyük bir idarəetmə məktəbidir. Heydər Əliyev irsi elə bir xəzinədir ki, onu öyrənib, tədqiq edib başa çatdırmaq mümkün deyil. Bu irs hələ bundan sonra da yeni-yeni nəsillərin tədqiqat obyekti olacaq.




Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxsahəli irsi isə xalqımızın milli sərvətidir. Sözsüz ki, nə qədər Azərbaycan var, o qədər də Heydər Əliyev var. İllər keçdikcə bu dahi şəxsiyyətin həyatı daha ciddi elmi araşdırmalara cəlb olunacaq, onun fövqəladə idarəetmə qabiliyyəti haqqında cild-cild kitablar yazılacaq.

Hüquq elmləri doktoru, professor Habil Surxay oğlu Qurbanovun Ulu Öndər haqqında yazdığı və bu günlərdə "Bakı Nafta-Press" nəşriyyataında çap olunmuş "Heydər Əliyev Azərbaycanda milli qanunvericiliyin və hüquqi dövlətin yaradıcısıdır" kitabında müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlət sahibi olmaq arzusunu praktiki şəkildə gerçəkləşdirmiş, strateq kimi çağdaş tariximizdə əbədiyaşarlılığını təmin etmiş Ulu Öndərin milli qanunvericiliyin və hüquqi dövlətin yaradıcısı kimi titanik fəaliyyəti barədə yazmışdır.

Müəllif oxuculara təqdim etdiyi üç fəsildən ibarət 310 səhifəlik kitabında Ulu Öndərin hüquqi dövlət quruculuğu sahəsində gördüyü işlərdən bəhs edərək bu dahi şəxsiyyətin milli qanunvericilik sahəsində həyata keçirdiyi müqayisəolunmaz işlərin panoramasını təqdim etməyə çalışmışdır. Müəllif haqlı olaraq qeyd edir ki, yaxın keçmişimizə nəzər salsaq, görərik ki, bu günümüzə gələn yol heç də asan və hamar olmayıb. Bu yolda problemlərimiz, çətinliklərimiz, ağrılarımız kifayət qədər çox olub. Arxada qalan illərə ardıcıl müraciət etsək, müasir tariximizin hər səhifəsində dahi şəxsiyyət, böyük insan Ulu Öndərin silinməz izini görərik. Ulu Öndər Heydər Əliyevin ömür yolu hər birimiz üçün xalqa, vətənə xidmət etməyin rəmzinə çevrilib.

Professor Habil Qurbanov yeni kitabında daim həyat yolumuza nur çiləyən Ulu Öndərin fəaliyyətinin müxtəlif dövrlərini çoxsahəli aspektlərdən işıqlandırmağa çalışmış və buna böyük ustalıqla nail ola bilmişdir. Kitabda Ulu Öndərin beynəlxalq münasibətlər sistemində gördüyü ardıcıl və təxirəsalınmaz tədbirlərdən, müstəqilliyimizin ilk illərində xarici siyasət sahəsində uğurlu və çevik siyasətindən, daxili sabitliyi qorumaq üçün apardığı işlərdən maraqla bəhs edilir.

Kitabda müəllifin uzun illər apardığı araşdırmalar, son illər beynəlxalq və respublikamızda keçirilən konfranslarda etdiyi məruzələr, həmçinin ölkədə KİV və elmi jurnallarda çapdan çıxmış məqalələrin toplusu bir daha təkmilləşdirilərək nəşr edilmişdir.

Professor Habil Qurbanovun "Heydər Əliyev İli"nə ithaf etdiyi kitab geniş oxucu kütləsi, bakalavr, magistr, doktorant, elmi tədqiqatçılar, QHT və siyasi partiya nümayəndələri, hüquq maarifçilik sahəsində çalışanlar üçün nəzərdə tutulub. Şübhəsiz ki, gərgin əmək, yüksək peşəkarlıq, zəngin biliyə əsaslanaraq yazılan kitabı Ulu Öndərin irsini öyrənmək sahəsində mühüm addım hesab etmək olar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***





# Türkiyədə Azərbaycan şəhəri

## İlham Əliyev Azərbaycanın daim Türkiyənin yanında olduğunu əməli işlərlə sübut edir

*Əvvəli 1-ci səh.*













Daha sonra, 1921-ci ildə, Nəriman Nərimanovun tapşırığı ilə Azərbaycandan Türkiyəyə qardaş əli uzadılmış, müxtəlif tarixlərdə xeyli miqdarda neft, benzin, kerosin, eləcə də 500 kiloqram qızıl göndərilmiş və bu yardımlar sayəsində döyüş içində olan ölkənin vəziyyəti xeyli düzəlmişdi. Həmin zaman Nərimanovun Mustafa Kamal Paşaya yazdığı məktub isə, heç şübhəsiz, ölçüyəgəlməz dəyərdə olan və üzərindən 100 ildən artıq zaman keçməsinə baxmayaraq, bu gün də bizi riqqətləndirən mənəvi dəstəyin göstəricisi idi: "Paşam, bizdə qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşının əlindən tutar. Biz qardaşıq, hər zaman əlinizdən tutacaq və tutmağa davam edəcəyik".

### Türkiyəyə yardım üçün Azərbaycanın dəvətə ehtiyacı yoxdur

Hələ 1999-cu ildə Türkiyədə baş verən dəhşətli zəlzələ zamanı da qardaş xalqa ilk yardım əlini uzadan məhz Azərbaycan oldu. 2000-ci ilin əvvəllərində Abdullah Gülün Türkiyədə Prezident olduğu dövrdə baş verən meşə yanğınları zamanı da Azərbaycan qardaş ölkəyə yardıma tələsib, həmin zaman yaşanan bir məqam isə xoş xatirə kimi yaddaşlara yazılıb. Meşə yanğınlarının söndürülməsi üçün bir çox ölkənin yardım təklifini geri çevirən Prezidentə "bəs nə üçün Azərbaycanın dəstəyinə yox deməmisiniz" deyə verilən suala isə o, belə cavab vermişdi ki, "axı heç Azərbaycan bizdən icazə istəməyib və artıq onların yanğını söndürmək üçün göndərdikləri təyyarələr Türkiyə səmalarındadır və yerə enmək üçün bizdən izin istəyirlər..."

Həmçinin 2021-ci və 2022-ci illərdə yay aylarında Türkiyədə baş vermiş və xeyli fəsadlara yol açmış geniş meşə yanğınları zamanı dövlətimiz maddi və mənəvi dəstəyi ilə Türkiyənin yanında olmuş, son ana qədər yardımını əsirgəməmişdi.

Eləcə də bu il fevralın 6-da baş verən iki ardıcıl dəhşətli zəlzələnin fəsadlarının aradan qaldırılması üçün Türkiyəyə ilk beynəlxalq yardımı Azərbaycan göstərdi.

Prezident İlham Əliyevin tapşırığına əsasən, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə qardaş Türkiyənin zəlzələ bölgəsinə dərhal yardım göstərilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirildi. Bütün Azərbaycan xalqı xoş günlərində olduğu kimi, dar günündə də qardaş türk xalqının yanında olduğunu bir daha nümayiş etdirdi.

Martın 16-da isə Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar Prezident İlham Əliyevin təşəbbüsü ilə Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşü baş tutdu.

Bütün bunlar isə Türkiyə və Azərbaycan, ümumilikdə türk dünyasının birgəliyinin, həmrəyliyinin bariz göstəricisidir.

Düz bir əsr əvvəl - 1918-ci ildə özü müxtəlif cəbhələrdə savaşmasına baxmayaraq, Azərbaycan tərəfinin istəyinə əsasən, Osmanlı dövləti dərhal Azərbaycana kömək etmək haqqında qərar verdi. Həmin vaxt Ənvər Paşanın 29 yaşındakı qardaşı Nuru Paşa Azərbaycana göndəriləcək orduya başçı təyin edildi və beləliklə, Qafqaz İslam Ordusu yaradıldı. O ordu ki Nuru Paşanın başçılığı ilə Gəncəni, Bakını düşməndən azad etdi, ümumilikdə, Azərbaycanın müstəqilliyini təmin etdi.

Vətən müharibəsinin ilk günündən də Azərbaycan Türkiyənin mənəvi siyasi dəstəyini hiss etdi, qardaşından aldığı bu dəstək onu daha da ruhlandırdı. 44 günlük müharibə dövründə Türkiyənin ölkəmizlə bağlı səsləndirdiyi həmrəylik mesajları düşmənlərimizə Azərbaycanın tək olmadığını çatdırdı. Vətən müharibəsi sayəsində tarixən var olan türk coğrafiyası bərpa edildi. 2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsi isə tarixən var olan həmrəylik bağlarımızı müttəfiqlik zirvəsinə yüksəltdi.

Aprelin 29-da Prezident İlham Əliyev İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında etdiyi çıxış zamanı tarixi bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi olduğunu vurğulayaraq bildirdi ki, Şuşa Azərbaycan xalqının əziz şəhəridir, türk dünyasının əziz şəhəridir: "Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Türkiyə, onun Cümhurbaşqanı, qardaş türk xalqı daim bizim yanımızda idi".

### Birlikdən doğan güc

Bu da tarixin ədalət gərdişidir ki, Şuşa zəfərinin qazanılmasında məhz Türkiyə şirkəti "Baykar"ın istehsal etdiyi "Bayraktar" adlı PUA-ların böyük rolu oldu.

Türkiyənin gündən-günə qüdrətlənməsi, dünyada aparıcı söz sahibinə çevrilməsi, müasir sənaye nəhənginə çevrilməsi, xüsusilə hərbi sahədə Azərbaycana da böyük qürur yaşadır.

Elə aprelin 29-da İstanbulda keçirilən "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalında Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı, hətta qardaş ölkənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan və həyat yoldaşı Əminə Ərdoğanla birgə qardaş ölkənin texnoloji inkişafının daha bir göstəricisi olan "Togg" avtomobili ilə festivalın keçirildiyi məkana gəlmələri də bunu bir daha təsdiq edir.

Festivaldakı çıxışı zamanı İlham Əliyev söylədi ki, bir il öncə "TEKNOFEST" festivalı Bakıda keçirilmişdir və əziz qardaşımla bərabər biz "TEKNOFEST"də iştirak etmişdik: "Bu gün mən buradayam. Bu, bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan hər zaman bir yerdədir. Türkiyə və Azərbaycan dost, qardaş ölkələrdir".

Türkiyənin son 20 il ərzində böyük və şərəfli yol keçdiyini qeyd edən dövlətimizin başçısı onu da bildirdi ki, hörmətli Cümhurbaşqanının liderliyi ilə Türkiyə dünya çapında söz sahibinə çevrilmiş, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır. Türkiyə böyük türk dünyasının birləşməsi işində çox böyük rol oynadı: "Ötən ay türk dövlətlərinin Ankarada keçirilmiş Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşıma öz dəstəyini, öz hörmətini və bizim ümumi həmrəyliyimizi bildirmişdir. Türk dünyasının böyük coğrafiyası, böyük potensialı, böyük təbii qaynaqları, böyük hərbi gücü var. Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın türk dünyası qarşısında tarixi xidmətləri vardır".

Gül-çiçək yağışı altında böyük çoşqu ilə keçirilən festivalın ən yaddaqalan, qürurverici, duyğulu anlarından biri isə, heç şübhəsiz, "TEKNOFEST" çərçivəsində Azərbaycan dövlətinin zəlzələnin baş verdiyi Kahramanmaraş vilayətində inşa edəcəyi min ev, məktəb, məscid və digər infrastruktur obyektlərindən ibarət yaşayış kompleksinin onlayn rejimdə təməlinin qoyulması mərasimi oldu.

Azərbaycanın Türkiyəyə bu qardaşlıq köməyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan söylədi ki, əziz qardaşım İlham Əliyev lap əvvəldən mərkəzi Pazarcık olan zəlzələdə bizi heç vaxt yalnız qoymadı. İlk andan etibarən axtarış-xilasetmə heyətləri Kahramanmaraşda bizimlə birlikdə oldu: "Onunla da kifayətlənmədi, daha sonra İlham qardaşım Kahramanmaraşda min evin inşa ediləcəyinə söz verdi. Təbii ki, orada məktəbi, məscidi, yataqxanası və yaşayış binaları olan bir Azərbaycan şəhəri inşa etməyi qərara aldı. Bu gün fürsətdən istifadə edərək, indi onun təməlini qoyacağıq.

Layihə möhtəşəmdir. Bu layihəni, inşallah, qısa müddətdə haqqı çatanlara Azərbaycanın əli ilə təqdim edəcəyik".

Bəli, Azərbaycan-Türkiyə birliyi zamanın sınağından uğurla keçərək hər ötən an daha da möhkəm bağlarla bir-birinə bağlanır və minilliklərə ötürülür.

Təsəvvür edin, necə ki bu gün biz yüz il əvvəl əcdadlarımızın bir-birilərinə göstərdikləri dayaq və dəstəklə fəxr edirik, elə yüz ildən sonra da Azərbaycan və Türkiyənin bir-birinə göstərdiyi misilsiz həmrəylik, qardaşlıq nümunələri ilə xalqlarımızın gələcək nümayəndələri qürur duyacaqlar.

İllər ötəcək, amma cəbrayıllılar, füzulililər, zəngilanlılar, qubadlılılar, ağdamlılar, kəlbəcərlilər, laçınlılar, şuşalılar, ümumilikdə, azərbaycanlılar Türkiyənin Vətən müharibəsində ölkəmizə göstərdiyi mənəvi dəstəyi heç zaman unutmayacaqlar, hər zaman minnətdarlıq hissi ilə yad edəcəklər.

Zaman keçəcək, lakin qazianteplilər, malatyalılar, diyarbəkirlilər, kilislilər, şanlıurfalılar, adıyamanlılar, hataylılar, osmaniyəlilər, adanalılar, ümumiyyətlə, bütün türkiyəlilər Azərbaycanın Türkiyənin ən çətin anlarında ona dayaq, dəstək durmasını heç zaman yaddaşlarından çıxarmayacaqlar, daim təşəkkür hissi ilə xatırlayacaqlar...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Bir yumruğa çevrilən qardaşlıq gücü

## Azərbaycan-Türkiyə dostluğunun dünyada bənzəri yoxdur





Ötən həftə qardaş Türkiyədə iki ölkənin dostluğunu, strateji tərəfdaşlığını əks etdirən daha bir tarixi hadisə yaşandı. Prezident İlham Əliyev Türkiyəyə səfəri çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla İstanbulda keçirilən "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalında iştirak ediblər. Dövlət başçıları və xanımları festivala Türkiyə sənayesinin məhsulu olan "Togg" avtomobili ilə gəliblər.

Festivalda çıxış edən Prezident İlham Əliyev ötən il Bakıda keçirilmiş "TEKNOFEST"i xatırladaraq Türkiyə və Azərbaycanın hər zaman bir yerdə olduğunu vurğulayıb: "Türkiyə və Azərbaycan dost, qardaş ölkələrdir. Eyni zamanda iki il bundan öncə Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. O tarixi bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi var. Şuşa Azərbaycan xalqının əziz şəhəridir, türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Türkiyə, onun Cümhurbaşqanı, qardaş türk xalqı daim bizim yanımızda idi".

Türkiyənin son 20 il ərzində böyük və şərəfli yol keçdiyindən söz açan dövlətimizin başçısı bildirib ki, Cümhurbaşqanının liderliyi ilə Türkiyə dünya çapında söz sahibinə çevrilib, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır: "...Türk dünyasının böyük coğrafiyası, böyük potensialı, böyük təbii qaynaqları, böyük hərbi gücü var. Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın türk dünyası qarşısında tarixi xidmətləri vardır".

İki qardaş dövlətin başçısının çıxışları, həmçinin Azərbaycanın zəlzələnin baş verdiyi Kahramanmaraş vilayətində inşa edəcəyi min evdən, məktəb, məscid və digər infrastruktur obyektlərindən ibarət yaşayış kompleksinin onlayn rejimdə təməlinin qoyulması mərasimi Türkiyə və Azərbaycanın yaxşı gündə də, ağır gündə də bir-birinin yanında olduğunu göstərir. Eyni zamanda iki ölkə rəhbərinin artıq ənənəvi xarakter daşıyan qarşılıqlı səfərləri həm Azərbaycanın, həm də Türkiyənin bir yumruq olduğunun bariz nümunəsidir.

### Regionda sülhün təmin olunması iki ölkənin təşəbbüsləri sayəsində mümkündür

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin Türkiyə Prezidentinin dəvəti ilə qardaş ölkəyə işgüzar səfəri, "TEKNOFEST"də iştirakı zamanı səsləndirdiyi fikirlər Azərbaycan-Türkiyə münasibətlərinin xarakterini bir daha göstərdi.

Deputat qeyd edib ki, Azərbaycanla Türkiyə hər zaman bir-birinin yanındadır: "Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, hamı Azərbaycan-Türkiyə münasibətlərinin xarakterini nəzərə almalıdır. Ölkə rəhbərimiz çıxışı zamanı yeni bir ifadə işlətdi: "...Əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, "bir millət, iki dövlət, əlavə etmək istəyirəm, "Bir yumruq!" Hesab edirəm ki, bu fikir həyata vəsiqə almış bir ifadədir. Əslində, ölkə rəhbərinin fikrinin çox böyük fəlsəfi mənası var, çünki Azərbaycan və Türkiyə birliyi Cənubi Qafqazda çox güclü amildir. Bu amil kənar dairələr tərəfindən mütləq nəzərə alınmalıdır. Bu regionda təhlükəsizliyin və sülhün təmin olunması, əməkdaşlığın inkişaf etdirilməsi iki ölkənin birgə təşəbbüsləri, səyləri sayəsində mümkündür. Bu, bütövlükdə Cənubi Qafqazda vəziyyəti təyin edən reallıqdır".

E.Mirbəşiroğlu hesab edir ki, dövlət başçımızın "TEKNOFEST"də iştirakı zamanı dediyi fikir Azərbaycan-Türkiyə münasibətlərinin daha dəqiq ifadəsi üçün uğurludur. Prezident İlham Əliyev həmçinin son 20 ildə cənab Ərdoğanın liderliyi altında Türkiyənin keçdiyi inkişaf yoluna toxundu. Həqiqətən, Türkiyə bu illərdə olduqca böyük uğur yolu keçib. Nəzərə almaq lazımdır ki, 2000-ci ildə Türkiyənin ixracı təxminən 36 milyard dollar təşkil edirdisə, bu gün 250 milyard dollardan artıqdır. Ümumiyyətlə, dünya mal bazarında Türkiyənin payı olduqca böyükdür.

Deputat vurğulayıb ki, Ərdoğanın rəhbərliyi dövründə Türkiyə idxalçı ölkədən dünya bazarlarına müxtəlif məhsullar ixrac edən ölkəyə çevrilib. Deputat Türkiyənin Ərdoğanın təşəbbüsü ilə referenduma getdiyini və 2017-ci ildə parlamentli respublikadan prezidentli respublikaya keçdiyini xatırladaraq əlavə edib ki, bu, qardaş ölkəyə milli maraqlarına uyğun olaraq tam müstəqil siyasət həyata keçirməyə imkan verib. Bütövlükdə, Ərdoğanın son 20 ildə Türkiyənin inkişafı, güclənməsi üçün verdiyi töhfələri sadalamaqla bitməz.

Türkiyənin keçmiş olduğu böyük uğur yolu kənardan daha aydın müşahidə olunur. Azərbaycan Prezidentinin bu uğurları səsləndirməsi həm də Türkiyə cəmiyyətinə təsirli bir mesajdır. "Türkiyənin liderliyini saxlaması üçün Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi inkişaf kursunun davam etdirilməsi vacibdir. İlham Əliyevin qardaş ölkəyə işgüzar səfəri olduqca əhəmiyyətli oldu. Azərbaycan-Türkiyə birliyinin, Azərbaycanda Rəcəb Tayyib Ərdoğana münasibətin xarakterini həm Türkiyə cəmiyyətinə, həm də dünya ictimaiyyətinə çatdırmış oldu", - deyə E.Mirbəşiroğlu əlavə edib.

### Azərbaycan-Türkiyə dostluğu dünyada sülhə, əmin-amanlığa xidmət edir

Milli Məclisin deputatı Kamilə Əliyeva qeyd edib ki, Türkiyədə keçirilən "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalı türk dünyasının iki liderinin birlikdə iştirak etməsi ilə hər kəsdə böyük qürur hissi yaradıb.

Deputat bildirib ki, Azərbaycan və Türkiyə dövlətlərinin, xalqlarının bu cür dostluğu, qardaşlıq əlaqələri digər türkdilli dövlətlərin də birləşməsinə böyük örnəkdir: "Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın dostluq əlaqələri, iki ölkə arasındakı münasibətlər türk dövlətlərinin birliyini daha da gücləndirəcək. Dövlət başçımızın festivalda çıxışı və söylədiyi fikirlər hər bir azərbaycanlının ürəyindən keçənləri xəbər verirdi. Festivalda yaşananlar Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadəsinin daha bir təsdiqi idi".

Kamilə Əliyeva vurğulayıb ki, son 20 ildə Türkiyə böyük inqilabi inkişaf mərhələsinə qədəm qoyub. Türkiyənin sənayesi, iqtisadiyyatı hər il yüksəlməkdə davam edir. Qardaş ölkənin hərbi sənayesi ən son texnologiyalar tətbiq etməklə böyük nailiyyətlər əldə edib. Bu gün Türkiyə həm iqtisadi-siyasi, həm də hərbi cəhətdən dünyanın ən güclü dövlətlərindən birinə çevrilib.

Türkiyənin dünyada güc mərkəzinə çevrildiyini deyən deputat əlavə edib ki, qardaş ölkənin gücünün artması Azərbaycanın da gücünü artırır.

Onun sözlərinə görə, Azərbaycan-Türkiyə dostluğu regionla yanaşı, dünyada sülhə, əmin-amanlığa xidmət edir. "Bu gün Türkiyə və Azərbaycan səmalarında "Bayraktar"lar uçur və Türkiyə artıq dünyanın ən qabaqcıl və üstün texnologiyaya sahib olduğunu göstərir. Yaxın vaxtlarda Azərbaycan səmasında da "Kızılelma"nı görəcəyimizə ümid edirik. Eyni zamanda Azərbaycanda "Bayraktar" mərkəzinin yaradılması barədə Prezident İlham Əliyevin söylədikləri hər birimizi qürurlandırdı. Dövlət başçımızın da qeyd etdiyi kimi, bu gün Türkiyə və Azərbaycan bir yumruqdur".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İşləri ASANlaşdıran milli brend

## 1 saylı Sumqayıt regional "ASAN xidmət" mərkəzinin açılmasından 10 il ötür











Bu mərkəzdə xidmət göstərənlərin əsas amalı vətəndaşları məmnun etmək, müraciətlərinə ən qısa vaxtda baxıb onları gülərüzlə yola salmaqdır. Əməkdaşların belə peşəkar iş prinsipləri elə mərkəzə daxil olan kimi onların operativliyindən və mehribanlığından aşkar hiss olunur. Sumqayıtlılar və ətraf rayonların sakinləri 10 ildir ki, işlərini asanlaşdırmaq üçün məhz bura üz tuturlar.

### İslahatların uğurlu nəticəsi

"ASAN xidmət" mərkəzlərinin keyfiyyətli fəaliyyəti Prezident İlham Əliyev tərəfindən dövlət idarəçiliyinin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində həyata keçirilən islahatların uğurlu nəticələrindən biridir. Dövlət başçısının iştirakı ilə 2013-cü il mayın 3-də açılışı baş tutan 1 saylı Sumqayıt regional "ASAN xidmət" mərkəzi də bu islahatların tərkib hissəsidir. Bu gün 10 yaşı tamam olan mərkəz müvafiq xidmətlər üzrə qeydiyyat məhdudiyyəti olmadan vətəndaşlara yüksək səviyyədə xidmət göstərir.

Burada müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox xidmət göstərilir. Onillik fəaliyyəti dövründə mərkəzə 6 milyon 150 minə yaxın vətəndaş müraciəti daxil olub. Eyni zamanda Səyyar "ASAN xidmət" avtobusu vasitəsilə 171 mindən çox müraciət qəbul edilib. Filiala gündəlik müraciət sayı isə 2 minə yaxındır.

Mərkəzin 10 illik iş təcrübəsinə malik əməkdaşı Sahib Qasımlı işindən məmnundur. O deyir ki, nəinki 10 il, bundan sonra 50 il də olsa, burada çalışıb vətəndaşlara xidmət göstərməyə cani-könüldən razıdır. O, vətəndaşlara keyfiyyətli xidmət göstərməyi həm də özünün vətəndaş borcu hesab edir. "Ötən 10 il ərzində "ASAN xidmət"in digər mərkəzlərində olduğu kimi, Sumqayıt filialında da müsbət dəyişikliklər olub. "ASAN xidmət" əsas hədəfinə, vətəndaş məmnunluğunun təminatına hər keçən gün daha çox nail olur. Bu işdə, sözsüz ki, rəhbərliklə yanaşı, işçilərin, lap elə təcrübə keçənlərin və könüllülərin də rolu böyükdür" , - deyə S.Qasımlı bildirir. Burada təchizat işləri ilə məşğul olan mütəxəssisin dediyinə görə, mərkəz vətəndaş məmnunluğuna o qədər diqqətlə yanaşır ki, xidmətdən razı qalanlar daim bura üz tuturlar. Əməkdaşlar bildirirlər ki, onlar vətəndaşlara elə xidmət göstərməyə çalışırlar ki, adlarına layiq olsun, "ASAN"dan çıxan heç bir vətəndaşın işi çətinə düşməsin.

### 3400 könüllünün xidməti

"ASAN xidmət" gənclərin təcrübə toplayaraq sosiallaşmaları üçün könüllülərlə əməkdaşlıq edir. Ümumiyyətlə, "ASAN xidmət" "Könüllü fəaliyyət haqqında" qanunu tətbiq edən ilk dövlət orqanıdır. 1 saylı Sumqayıt regional "ASAN xidmət" mərkəzində indiyədək 3400 nəfər könüllü fəaliyyət göstərib. Bu dövr ərzində könüllülərin iştirakı ilə müxtəlif sosial layihələr, teatr və tamaşalar, idman yarışları, intellektual oyunlar, xeyriyyə aksiyaları, tarix və mədəniyyət abidələrinə ekskursiyalar təşkil olunub. Ümumilikdə isə respublika üzrə fəaliyyət göstərən 25 "ASAN xidmət" mərkəzində könüllülük proqramlarına 30 mindən çox gənc qoşulub.

Belə gənclərdən biri də Emil Qarayevdir. O, 3 aylıq könüllülük proqramını başa vurduqdan sonra, ötən ay "ASAN xidmət"də işlə təmin edilib. "Tələbəliyin ilk illərindən etibarən "ASAN xidmət"in könüllülük proqramı ilə maraqlansam da, burada işləməyim cari ilə qismət oldu. Burada könüllü kimi fəaliyyət göstərmək xüsusilə gənclər üçün yaxşı təcrübə imkanı qazandırır. Gələcəkdə istənilən yerli və xarici şirkətlərdə işlə təmin olunmaq üçün bu təcrübə çox önəmlidir. Çünki bu gün nəinki ölkəmizdə, eləcə də dünyanın bir sıra ölkələrində "ASAN xidmət"in brend kimi formalaşdığı hər kəsə məlumdur. Bu mərkəzdə vətəndaş məmnunluğu hər şeydən üstün tutulur", - deyə müsahibimiz bildirir.

Yeri gəlmişkən, qeyd edək ki, indiyə qədər 3300-dən çox könüllü "ASAN Kadr" portalı vasitəsilə işlə təmin olunub. Mərkəzin ən gənc könüllülərindən biri olan İradə Məmmədova da "ASAN xidmət"dən razıdır. O, birinci kurs tələbəsi olmaqla yanaşı, mərkəzdə könüllülük fəaliyyətini də rahat şəkildə davam etdirir. Gün ərzində mərkəzdə 3 saat çalışmaqla gənc könüllü həm iş təcrübəsi qazanır, həm də belə böyük kollektivlə işləmək onun motivasiyasını və özgüvənini artırır. O bildirir ki, burada ünsiyyət bacarığını inkişaf etdirir, özünü əvvəlkindən daha yaxşı ifadə edir və nizam-intizamlı olmağı öyrənir: "Belə təcrübə gənclər üçün əla fürsətdir. Əgər qismət olarsa, karyeramı elə təhsilimi başa vurduqdan sonra da burada davam etdirmək istəyərəm".

### Heç Avropada belə xidmət yoxdur

Şəffaflığın, dövlət orqanlarına müraciətin asanlığının şahidinə çevrilmək və ən əsası məmnun olub-olmadıqlarını özlərindən eşitmək üçün mərkəzdəki vətəndaşlarla söhbətləşdik. Aydın oldu ki, "ASAN xidmət"in onlar üçün başlıca üstünlüyü mərkəzdə xoş qarşılanmaları və müraciətlərinin qısa müddətdə həllini tapmasıdır. Onlar daha əvvəlki kimi müxtəlif idarələrə üz tutmaq məcburiyyətində qalmadıqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirir, işlərinin asanlaşdırılması üçün həyata keçirilən bütün inkişaf tədbirlərini yüksək qiymətləndirirlər. Elə vətəndaşların simalarındakı xoş ifadə də onların məmnunluğundan xəbər verirdi.

"Sənəd işləri ilə bağlı hələ 10 il əvvəl ilk dəfə bura gəlməyi planlaşdıranda düşünürdüm ki, proses bir neçə gün davam edəcək. Axı belə öyrəşmişdik... Lakin burada işimi asan və operativ şəkildə həll etdilər. "ASAN xidmət", doğrudan da, həm məmnunluğumuzun təminatçısıdır, həm də vaxtımıza qənaət edir. Bizə başqa nə lazımdır?!", - deyə Sumqayıt sakini Lalə Hüseynova bildirir.

"Şöhrət" ordenli Əməkdar müəllim, Prezidentin fərdi təqaüdçüsü Ofelya Babayevanın da işləri "ASAN xidmət" fəaliyyətə başlayandan daha da asanlaşıb. O həm sıravi vətəndaş, həm də ziyalımız kimi mərkəzin fəaliyyətini yüksək dəyərləndirir. Ofelya Babayevanın sözlərinə görə, "ASAN xidmət" dünyada analoqu olmayan xidmət mərkəzidir və doğrudan da, ölkəmizin milli brendidir. "Belə yüksək və şəffaf xidmət göstərdiklərinə görə, başda Prezident İlham Əliyev olmaqla, bu işdə əməyi keçən hər kəsə təşəkkürümüzü bildiririk. "ASAN xidmət"də hər ötən il xidmətin keyfiyyəti yüksəlir ki, bu da vətəndaş məmnunluğunun artmasına səbəb olur. Təsadüfi deyil ki, bu gün dünyanın bir sıra ölkələri Azərbaycan "ASAN xidmət" təcrübəsini öyrənir və tətbiq edirlər", - deyə O.Babayeva qeyd edir.

Elə bu məqamda Ofelya xanımın Almaniyadan qonaq gəlmiş dostu Bilal Bünyadzadə də söhbətə qoşulur. Deyir, ilk dəfə Vətənimizdə "ASAN xidmət"ə üz tutanda buradakı gülərüz qarşılanma, xoş ünsiyyət onu heyrətləndirib: "Get-gələ salmadılar, işimi 3-5 dəqiqənin içində həll edib, məni məmnun şəkildə yola saldılar. O qədər şəffaf, rahat və nəzakətli xidmətdir ki, heç Avropada beləsi yoxdur".

### Azərbaycanın intellektual məhsulu

Bu mərkəzdəki müsbət ab-hava onu deməyə əsas verir ki, ölkəmizdə dövlət qulluqçuları ilə vətəndaşlar arasındakı münasibətlər keyfiyyətcə yeni müstəviyə keçib. "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulub. Bunun nəticəsidir ki, digərlərində olduğu kimi, 1 saylı Sumqayıt regional "ASAN xidmət" mərkəzində də vətəndaşların vaxt itkisinin qarşısı alınır, onlar nəzakətlə qarşılanıb yola salınırlar. Bir sözlə, burada vətəndaşların razı qalması üçün hər cür şərait yaradılıb.

Bu mərkəzlərdə göstərilən xidmətlərin əhali tərəfindən rəğbətlə qarşılanması təsadüfi deyil. Prezident İlham Əliyev aprelin 18-də Salyanda "ASAN xidmət" mərkəzinin açılış mərasimindən sonra verdiyi müsahibəsində dediyi kimi, "ASAN xidmət" bizim, o cümlədən intellektual məhsulumuzun bir nümunəsidir. Ona görə də ölkəmizdə artıq 10 ildir ki tətbiq edilən "ASAN xidmət" nümunəvi xidməti ilə vətəndaşların hər işini asanlaşdırmaqda davam edir.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Nəzarət-keçid məntəqəsində hərəkətin təhlükəsizliyi təmin olunub

Azərbaycan bayrağı Laçın rayonunda Laçın-Xankəndi yolunun başlanğıcında qurulan nəzarət-buraxılış məntəqəsində qürurla dalğalanır. Artıq neçə gündür ki, nəzarət-buraxılış məntəqəmizdə insanların və avtomobillərin rahat keçidi təmin edilib. Nəzarət-buraxılış məntəqəsində işlər qaydalara uyğun olaraq, nizam-intizamlı şəkildə təşkil olunub. Sərhədçilərimiz burada vəzifələrini peşəkarlıqla həyata keçirirlər.



### Ermənilərin yalan təbliğatı yenə də iflasa uğradı

Laçın yolunun başlanğıcında qurulan sərhəd-keçid məntəqəsində təhlükəsizliyin və hərəkətə nəzarətin yüksək səviyyədə təmin edilməsi, insanların qayda-qanun çərçivəsində sərhədi keçməsi ilə bağlı heç bir problemin müşahidə olunmaması bir daha təsdiqləyir ki, Azərbaycan dövlətinin yeganə məramı öz ərazilərinə sahib çıxmaqdır. Sərhəddə nəzarət-buraxılış məntəqəsi yaratmaqda məqsəd də Laçın-Xankəndi yolunda avtomobillərin və insanların təhlükəsiz hərəkətini təmin etmək, ölkəmizin ərazisinə qeyri-qanuni daşımaların qarşısını almaqdır.

Həyata keçirilən işlər Ermənistanın guya Azərbaycanın niyyətinin hərəkəti məhdudlaşdırmaq olması barədə iddialarını boşa çıxarır. Belə ki, Ermənistan rəsmiləri "etnik təmizləmə" və Laçın yolunun "blokada"sı ilə bağlı canfəşanlıqla ortaya yalanlar, böhtanlar atmaqla yenə də suyu bulandırmağa çalışırlar. Ancaq nə qədər cəhd etsələr də, ermənilərin yalan təbliğatı gözlədikləri nəticəni vermədi.

Ermənistanın otuz ilə yaxın işğal altında saxladığı, həmin müddətdə evlərini, muzeylərini qarət etdiyi, uçurub dağıtdığı, təbii sərvətlərini talayaraq daşıyıb apardığı Qarabağ və Şərqi Zəngəzur ərazilərindən Azərbaycan Ordusunun Vətən müharibəsində nail olduğu şanlı qələbədən sonra da gözünü çəkmədiyi danılmaz faktlardır. Müharibə başa çatsa da, 2020-ci ilin 10 noyabrında üçtərəfli Bəyanata imza atsa da, Ermənistan rəsmiləri sülhün, sabitliyin bərqərar olmaması üçün əllərindən gələni əsirgəmədilər. Qarabağ və Şərqi Zəngəzur torpaqlarında erməni vandalları mina terroru aparmaqda davam etdilər. Nəticədə Azərbaycan vətəndaşları şəhid və ya əlil oldular.

İşğaldan azad olunmuş ərazilərimizdə erməni separatçıları tərəfindən sərvətlərimizin istismarına və talanmasına etirazlarını Azərbaycanın vətəndaş cəmiyyətinin nümayəndələri, ekofəallar və könüllü gənclər dinc aksiya keçirməklə bildirdilər. Onlar ötən il dekabrın 12-dən başladıqları aksiyanı bu il aprelin 28-dək davam etdirdilər. Aksiya iştirakçıları həmçinin Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi zonasına Ermənistanın gizli şəkildə silah-sursat, canlı qüvvə daşımağa davam etməsinə qarşı öz etiraz səslərini ucaltdılar.



Ermənistanın məkrli planlarının qarşısını Azərbaycan Ordusunun bölmələri keçirdiyi uğurlu əməliyyatla aldılar. Azərbaycan Ermənistanın bu təhlükəli və qanunsuz əməllərinə son qoydu. Aprelin 23-də Azərbaycan Ermənistanla şərti sərhəddə, Laçın yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsini qurdu.

### İnsanların və avtomobillərin sərbəst və təhlükəsiz keçidinə təminat yaradılıb

Azərbaycan hər zaman sülhün tərəfdarı kimi çıxış edir. Prezident İlham Əliyev aprelin 27-də Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonnanı qəbul edərkən bu faktı bir daha diqqətə çatdırdı. Dövlət başçısı vurğuladı ki, 44 günlük Vətən müharibəsi başa çatandan dərhal sonra məhz ölkəmiz Ermənistanla qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaqla sülh müqaviləsi imzalamaq təklifini irəli sürdü və bunun üçün rəsmi İrəvana 5 prinsip təqdim etdi. Prezident İlham Əliyev 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından və 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Ermənistanın öz üzərinə düşən öhdəliklərini yerinə yetirmədiyini, Naxçıvanla dəhlizin yaradılmasına imkan vermədiyini, öz qoşunlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmadığını və Laçın dəhlizindən sui-istifadə edərək Qarabağa silah-sursat və digər hərbi təyinatlı məhsulları daşımasını həyata keçirdiyini qeyd etdi. Həmin görüşdə dövlətimizin başçısı bildirdi ki, Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması ölkəmizin suveren hüququ və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsidir.

Bəli, Azərbaycan öz ərazisində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurub, insanların və avtomobillərin sərbəst və təhlükəsiz keçidinə təminat yaradıb. Bu məntəqədə artıq gömrükçülərimiz də öz vəzifələrini ləyaqətlə həyata keçirirlər. Prosesin şəffaf aparılması üçün lazımi işlər görülüb, müasir aparatlar quraşdırılıb. Daha bu yoldan separatçılar respublikamıza qarşı təxribatlar törətmək məqsədilə istifadə edə bilməyəcəklər. Yalnız öz ərazilərində deyil, bütün dünyada sabitliyin tərəfdarı olan, sülhü dəstəkləyən, beynəlxalq hüququn norma və prinsiplərinə hər zaman hörmətlə yanaşan Azərbaycan bu addımı atmaqla bir daha öz qətiyyətli mövqeyini nümayiş etdirdi.




Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması millətindən asılı olmayaraq, Qarabağda və Şərqi Zəngəzurda yaşayan hər bir Azərbaycan vətəndaşının təhlükəsiz şəraitdə yaşaması üçün uğurlu addımdır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Torpağa ölüm "səpənlər"

## İşğaldan azad edilmiş ərazilərimizdə partlayan hər bir mina ermənilərin iç üzündən xəbər verir

Erməni nasistləri misli görünməyən vəhşiliklərin və insan ağlının dərk etməsi mümkün olmayan qansız cinayətlərin müəllifləridir. Onların belə əməllərindən biri də dinc sakinləri, qadınları və uşaqları qətlə yetirən, ölümünə bais olan basdırdıqları minalardır.



Bir neçə gün əvvəl Tərtər rayonunda yenə də belə minalardan biri partlamış və 3 nəfər minaaxtaran həyatını itirmişdir. Təzəlikcə isə işğaldan azad edilmiş Cəbrayıl rayonu ərazisində bir çoban erməni minasının qurbanı olmuşdur.

Təəssüf ki, Azərbaycan mediasında belə xəbərlərə tez-tez rast gəlirik. Əvvəlki rəqəmləri nəzərə almasaq, təkcə 44 günlük Vətən müharibəsindən keçən müddət ərzində ümumilikdə 298 nəfər Azərbaycan vətəndaşı erməni faşistlərinin basdırdıqları minalara tuş gəlmiş, onlardan 54 nəfəri həlak olmuşdur. Bu statistik rəqəmlərin arxasında isə qırılan insan talelər, dinc əhalinin səksəkədə yaşanılan ağır günləri dayanır.

Bəli, görülən bütün tədbirlərə baxmayaraq, işğaldan azad edilmiş ərazilərdə basdırılımış minalardan real ölüm təhlükəsi hələ də qalır. Bircə səhv addım ermənilərin torpağımıza "səpdikləri" ölümlə üzləşmək deməkdir. Çünki sülhü pozmaq, dinc əhalini daim vahimə altında saxlamaq onların köhnə peşəsidir. Bu azmış kimi uşaq və qadınlara qənim kəsilməklə qürrələnən erməni faşıstləri törətdikləri əməllərə cavab vermək əvəzinə həyasızcasına hər şeyi boyunlarından atırlar. Onlar üçün törətdikləri cinayətlərlə lovğalanmaq əməllərini gizlətmək qədər asandır. Ermənilər postmünaqişə dövründə heç olmasa aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə mane olmamaq əvəzinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına maneçilik yaratmaqla qürrələnirlər.

Buna biz adət etmişik. Amma qəribəsi odur ki, dünyanın müxtəlif regionlarında bir mina partlayanda küy qaldıran beynəlxalq qurumlar ərazilərimizdə partlayan minaların səsini eşitmirlər. Ermənistanın beynəlxalq öhdəliklərini kobud şəkildə pozmasına, o cümlədən məqsədli şəkildə minalar yerləşdirmək siyasətinə göz yummamağa yönələn çağırışlarımız da onların qulağına çatmır.

Buna baxmayaraq, Azərbaycan bu gün bir tərəfdən ərazilərini sayı bilinməyən minalardan təmizləyir, digər tərəfdən başdan-başa tikinti meydançasına çevrilmiş Qarabağ və Şərqi Zəngəzurda geniş quruculuq işlərini davam etdirir. İşğalçı Ermənistanın nasist liderləri və mina basdıran qaniçənləri bu işdə Azərbaycana mane olmaq üçün min hoqqadan çıxsalar da, nə əlimizi işdən soyuda bilərlər, nə də ürəyimizi arzudan.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
balansında olan "Qarabağ" və "Balakən" bərə gəmilərinin MAN D2842LE301 köməkçi mühərriklərinin ehtiyat hissələrinin satın alınması məqsədilə
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 may 2023-cü il Bakı vaxtı ilə saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
balansında olan "Balakən" və "Bərdə" bərə gəmilərinin MAN D2876LE301 köməkçi mühərriklərinin ehtiyat hissələrinin satın alınması məqsədi ilə
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 may 2023-cü il Bakı vaxtı ilə saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***

**OXUCULARIN NƏZƏRİNƏ!**

**“AZƏRBAYCAN”** *qəzetinə*
***abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# Paşinyan yeni "casus proqramı"nı işə salıb

## Baş nazir bu yolla keçmiş hərbi xuntanın üzvlərini və jurnalistləri təqib edir

Hayastanda cərəyan edən son hadisələrin təhlili bu ölkədə iqtidara qarşı dərin bir etimadsızlığın hökm sürdüyünü üzə çıxarır. Baş nazir Nikol Paşinyan hər vəchlə hakimiyyətini möhkəmləndirməyə çalışır. Amma ölkənin bütün sahələrində, o cümlədən sosial sferada artan problemlər ciddi çətinliklər yaradıb.

Görünən budur ki, dünənə qədər demokratiya və qanunçuluqdan dəm vuran Paşinyan vəzifəsini qoruyub saxlamaq üçün ən radikal addımları belə atır. Məhz belə vəziyyətdə problemlər içində boğulan Hayastan əhalisi hökumətə etibar etmir.

Bütün bunların fonunda Hayastanın baş naziri avtoritar rejimlə hakimiyyətini daha da möhkəmləndirməyə çalışır. Bu barədə "The National Interest"də geniş yayımlanan məqalədə bildirilir ki, sadə ermənilər inqilab yolu ilə hərbi cani Serj Sarkisyanı devirən Paşinyanın "Məxməri inqilabı"na böyük ümidlər bəsləyirlərmiş. Amma son illərdə Hayastanın demokratik mənzərəsi daha da qaranlıqlaşıb. Hazırda isə yarıtmaz hakimiyyət aktiv şəkildə qeyri-demokratik idarəçiliyə, hətta avtoritarizmə doğru addımlayır.

Məqalədə İrəvanın anti-demokratik addımlarına dair tutarlı faktlar da göstərilib. Məsələn, erməni siyasi fəallar və jurnalistlərin təqib olunması indi daha çox narahatlıq doğurur. Bu faktlar hətta demokratik təsisatların fəaliyyətinin qiymətləndirilməsi üzrə ixtisaslaşmış bir sıra QHT-lərin illik hesabatlarında da öz əksini tapır.

"Freedom House" təşkilatı illik hesabatında Hayastanda siyasi hüquqlar və vətəndaş azadlıqları ilə bağlı qiymətləndirməsini aşağı salıb. Məlumatda bildirilir ki, rəngli inqilabla, demokratiya vəd edərək hakimiyyət kürsüsünə yiyələnən Paşinyan siyasi dissidentlərə, jurnalistlərə və hüquq müdafiəçilərinə qarşı genişmiqyaslı tədbirlər həyata keçirir. Misal olaraq "Cytrox" şirkəti tərəfindən yaradılmış "Predator" casus proqram təminatının hökumət tərəfindən qeyri-qanuni istifadəsinin aşkar edilməsi göstərilir. İrəvanın hakim "demokratlar"ı bu proqram təminatından geninə-boluna yararlanaraq jurnalistlərə, dissidentlərə və hüquq müdafiəçilərinə hücum etmək üçün istifadə ediblər. Hətta yerli media bir neçə dəfə bu mövzuya toxunaraq erməni müxalif siyasətçilərin elektron cihazlarının ələ keçirilməsi ilə bağlı məqalələr də dərc edib. Amma maraqlıdır ki, bütün bunlara baxmayaraq beynəlxalq təşkilatlar nə Paşinyanı, nə də ümumilikdə İrəvanı qınayan hansısa bəyanatlar yaymayıblar. Görünür, bu səbəbdəndir ki, İrəvan "Predator"la kifayətlənməyib. Yəni Paşinyanın komandası digər casus proqramlarını da dövriyyəyə buraxıb.

Erməni müxalifətinin liderlərindən sayılan Artur Vanetsyan bir müddət öncə mətbuata çıxaraq 2021-ci ildə telefonlarına məşhur "Pegasus" casus proqramlarının quraşdırıldığını iddia etdi. Bu açıqlamaya və ondan sonra ölkədə yaranmış siyasi qalmaqala baxmayaraq, erməni jurnalistlərə və müxalifətçilərə qarşı "Peqasus"dan istifadənin qarşısı alınmadı. Əksinə, onların izlənilməsi gücləndirildi.

Hayastanda sosial media mütəxəssislərinin 2022-ci ilin noyabrında apardığı araşdırmalara görə, "Pegasus" hələ də əsas müxalifət fiqurlarını və media nümayəndələrinin fəaliyyətini gizli şəkildə izləyə bilir. İndi aşkar görünür ki, baş nazir devirdiyi əvvəlki hökumətin üzvlərini təqib etməyə başlayıb. Məsələn, iki keçmiş müdafiə naziri siyasi motivlər səbəbindən həbs edilib və ya ittiham olunur. 2008-2016-cı illərdə nazir olmuş Seyran Ohanyan 2020-ci ildə 2 milyon dollardan çox dövlət vəsaitini mənimsəməkdə ittiham edilib. Oxşar ittiham 2021-ci ildə saxlanılan digər keçmiş müdafiə naziri David Tonoyana qarşı da irəli sürülüb.

Vurğulanır ki, Qərbdən təzyiqlər görməyən Nikol ikinci dalğaya start verib. Hazırkı komanda 2021-ci ilin yayında keçirilən növbədənkənar seçkilərdə qalib gəldikdən sonra ölkədə vəziyyət sürətlə dəyişməyə başlayıb.

Çünki Paşinyan müharibədəki məğlubiyyətinə rəğmən hakimiyyətdə qala bildiyini gördü. O, xalq düşmənlərinin ovlanması ilə bağlı yarımçıq qalan işini - Stalin dövründəki "təmizləmələri" xatırladan prosesi bərpa etdi.

Bütün bunlar Hayastanın üzləşdiyi problemlərin miqyasının daha da genişlənəcəyini, ölkənin təkcə sosial-iqtisadi yox, həm də siyasi müstəvidə böhrana düçar olacağını göstərir. Bu vəziyyətdə isə Hayastanın bir dövlət olaraq məhvə məhkumluğu labüddür.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Dünyada bahalaşma və yüksək inflyasiya davam edəcək

Ümumdünya İqtisadi Forumunun (ÜİF) araşdırmasında iştirak edən iqtisadiyyat sahəsində tanınmış ekspert və analitiklərin əksəriyyəti bu il dünyada inflyasiyanın yüksək səviyyədə qalacağı və yaşayışın bahalaşması ilə bağlı yekdil rəyə gəliblər.

ÜİF-nin özəl və ictimai iqtisadi ekspertlərinin rəyləri əsasında baş iqtisadçıların hazırladıqları "Proqnoz 2023" hesabatına görə, qlobal iqtisadi artım və inflyasiya proqnozları regionlar üzrə geniş şəkildə dəyişir. Məsələn, iqtisadçıların 45 faizi bu il qlobal tənəzzülü gözləyir. Eyni zamanda 45 faizi isə bunu mümkünsüz hesab edir.

Çində COVID-19 ilə mübarizə tədbirlərinin ləğvi fonunda ən böyük iqtisadi aktivliyin Asiya regionunda müşahidə olunacağı proqnozlaşdırılır.

İqtisadçıların yarısı hesab edir ki, bu il Çində iqtisadi artım mülayim olacaq. Mütəxəssislərin 43 faizi isə inkişafın güclü olacağını proqnozlaşdırır. Eyni zamanda iqtisadçıların 93 faizi Şərqi Asiya və Sakit okean regionunda mülayim iqtisadi artım olacağını proqnozlaşdırır. Ekspertlərin 50 faizi ABŞ-də, 75 faizi isə Avropada zəif və ya çox zəif artımın müşahidə olunacağı ilə razılaşıb. Bu arada iqtisadçıların 90 faizi Avropada, 68 faizi isə ABŞ-də yüksək və ya çox yüksək inflyasiyanın olacağını proqnozlaşdırır.




Əksər iqtisadçıların fikrincə, yüksək inflyasiya Afrikada Saxaranın cənubunda, Latın Amerikası və Karib hövzəsində davam edəcək.

Bundan əlavə, sorğuda iştirak edən iqtisadçıların yarısı Yaxın Şərq və Şimali Afrikada rekord inflyasiya gözləyir və yalnız 14 faiz eyni göstəricilərin Çində də müşahidə olunacağını təkid edir.

İqtisadçıların 79 faizinin fikrincə, mərkəzi bankların qarşısında duran vəzifə inflyasiyanın idarə edilməsi ilə bank sektorunda sabitliyin qorunması arasında tarazlığı saxlamaqdır.

İqtisadçıların 82 faizi maliyyə sabitliyi ilə bağlı narahatlıqlar səbəbindən faiz artımının ləngiyəcəyini proqnozlaşdırır. Eyni zamanda iqtisadçıların 76 faizi mərkəzi bankların inflyasiyanı hədəf səviyyələrə endirməkdə çətinlik çəkəcəyini düşünür.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və icra hakimiyyətinin kollektivi Gəncə Şəhər Kəpəz Bələdiyyəsinin sədri Yaşar Abdullayevə atası

**ATAKİŞİ ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi iş yoldaşları Qulu Kərimova həyat yoldaşı

**GÜLAYƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi iş yoldaşları Şükür Hüseynova anası

**HƏMAYIL XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi meliorasiya və su təsərrüfatı sahəsində uzun müddət çalışmış

**ABBAS İBİŞ OĞLU FƏRZƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA BABANLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağdamdan Vaqif Həsənov Eldəniz Qafarova əzizi

**SEVDA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA BABANLININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rəhbərliyi, professor-müəllim heyəti və ictimai təşkilatları Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlıya atası

**BABA BABANLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov və universitetin kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA BABANLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA BABANLININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlıya atası

**BABA BABANLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlıya atası

**BABA MAHMUD OĞLU BABANLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimovaya oğlu

**FARİZ SALMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlıya atası

**BABA BABANLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Aerokosmik Agentliyinin baş direktoru, professor Natiq Cavadov və agentliyin kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA BABANLININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov və universitetin kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Yüksək dağlıq ərazilərdə qar yağacaq

Azərbaycanda mayın 3-nə gözlənilən hava proqnozu açıqlanıb.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında səhər saatlarında gözlənilən yağışın gün ərzində davam edəcəyi gözlənilir. Yarımadanın bəzi yerlərində intensiv olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 9-13°, gündüz 13-17° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan yüksək - 765 millimetr civə sütunu, nisbi rütubət 60-70 faiz təşkil edəcək. Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 8-12°, gündüz 13-18° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-6° isti olacağı bildirilir.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5657**
**Sifariş 1068**

**Qiyməti 40 qəpik**